RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 234 (8257) ÇƏRŞƏNBƏ AXŞAMI, 22 oktyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev dünyanı yenidən Bakıya toplayır

## Azərbaycan Qoşulmama Hərəkatının timsalında beynəlxalq miqyasda lider mövqeyə çıxır

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçiriləcək XVIII Zirvə Görüşünə sayılı günlər qalır. Qeyd edək ki, bu müstəqillik dövründə Azərbaycanda keçirilən ən böyük beynəlxalq siyasi tədbirlərdən biri olacaq. Oktyabrın 25-26-da keçiriləcək zirvə görüşü "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusuna həsr olunacaq.

### 137 dövlət, 10 beynəlxalq təşkilatı birləşdirən hərəkat

Xatırladaq ki, bir sıra dövlətlərin soyuq müharibə dövründə iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri üçün 1961-ci ildə təsis etdiyi QH qısa müddət ərzində beynəlxalq sülh, təhlükəsizlik və inkişafa dair məsələlərin müzakirə edildiyi mühüm beynəlxalq foruma çevrilib. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rol oynayır. Xüsusən BMT-nin islahatı üzrə illərdən bəri aparılan proseslərdə irəliləyişin əldə olunmaması alternativ format kimi Qoşulmama Hərəkatının beynəlxalq önəmini daha da artırıb. Bu baxımdan, "Soyuq müharibə"nin başa çatmasına baxmayaraq hərəkat öz aktuallığını qoruyub saxlayıb və sıralarını daha da genişləndirib.

QH üzvlərinin sayına görə BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Hazırda onun sıralarında 120 dövlət birləşib. Daha 17 dövlət və 10 beynəlxalq təşkilat isə müşahidəçi statusunda hərəkatda təmsil olunur. Bu fakt QH-nın müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən bir mühüm çoxtərəfli platforma olmasını göstərir. Eyni zamanda bu qədər çox sayda üzv dövlətin təmsil olunması təsdiq edir ki, əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan QH konkret tarixi kontekstdə yaranmasına baxmayaraq, müasir dünyada da öz aktuallığını itirməyib və bu qurum beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən mühüm çoxtərəfli mexanizmlərdən biridir.

### Azərbaycana tam dəstək

Beynəlxalq təşkilatların üzvü olmaq, onun işində yaxından iştirak etmək hər bir dövlətin qarşıya qoyduğu mühüm hədəflərdir. Bu baxımdan respublikamızın da xarici siyasət prioritetlərindən biri beynəlxalq və regional təşkilatlarla sıx əlaqələr yaratmaq, onlarla əməkdaşlıq etməkdir. Ona görə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan beynəlxalq aləmə inteqrasiya kursunu seçərək qlobal siyasi proseslərə əsaslı təsir imkanları olan aparıcı təşkilatlarla əməkdaşlığa daim önəm verib. Bu gün dövlətimiz BMT ilə yanaşı, ATƏT, Avropa Şurası, İƏT, QDİƏT kimi təşkilatların üzvüdür. Həmçinin ölkəmizin Avropa İttifaqı, NATO kimi mötəbər beynəlxalq təşkilatlarla sıx əlaqələri formalaşıb və dərinləşib. Bunun nəticəsidir ki, xarici siyasətdəki müvəffəqiyyətləri Bakının regionda və bütün dünyada mövqelərini möhkəmlədib.

Digər təşkilatlarla müqayisədə Azərbaycanın Qoşulmama Hərəkatındakı üzvlüyü nisbətən yenidir. Belə ki, respublikamız Qoşulmama Hərəkatına 2011-ci ildə tamhüquqlu üzv olmaq qərarını verib. Həmin Balidə keçirilmiş XVI Nazirlər Konfransında hərəkata qoşulub.

Ardı 3-cü səh.

## Prezident İlham Əliyev Baş Nazirin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi: Hörmətli Əli müəllim, bu gün siz mənim ünvanıma ərizə yazmısınız. Ərizədə tutduğunuz vəzifədən azad olunmağınızı xahiş edirsiniz. İstərdim ki, sizə ölkəmizin inkişafına verdiyiniz töhfələrə görə təşəkkürümü bildirim. Siz uzun illərdir ki, Azərbaycanın hərtərəfli inkişafında fəal rol oynayırsınız.

Ardı 2-ci səh.

## Prezident İlham Əliyev Baş Nazirin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib.

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi: Hacıbala müəllim, siz bu gün mənə Baş Nazirin müavini vəzifəsindən azad olunmağınızla bağlı ərizə göndərmisiniz. Mən istərdim ki, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirim.

Ardı 2-ci səh.

# İqtisadi islahatlar real nəticələr verir

## Şahin MUSTAFAYEV: "Prezident İlham Əliyevin hər bir tapşırığı üzrə ayrıca əhatəli Tədbirlər Planı hazırlanır"

"Prezident İlham Əliyevin yanında keçirilmiş iqtisadi müşavirədə dövlət başçısı qarşıdakı dövr üçün mühüm və konkret vəzifələr müəyyənləşdirib. Cənab Prezidentin verdiyi tapşırıqların icrası ilə əlaqədar olaraq əlavə iqtisadi artım mənbələrinin iqtisadi dövriyyəyə cəlb edilməsi, işgüzar fəallığın daha da artırılması, iqtisadi subyektlərin əlavə dəyərin yaradılmasında iştirakının genişləndirilməsi üçün tədbirlərin görülməsi istiqamətində araşdırma və təhlillər aparılır".

Bu fikirləri Prezident İlham Əliyevin yanında keçirilmiş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar olaraq İqtisadiyyat Nazirliyində reallaşan kollegiya iclasında nazir Şahin Mustafayev söyləyib. Prezidentin verdiyi tapşırıqların icrası istiqamətində nazirlik tərəfindən görülən və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə geniş məlumat verən Şahin Mustafayev vurğulayıb ki, beynəlxalq maliyyə institutlarının təcrübəsi nəzərə alınmaqla, dövlət dəstəyi tədbirlərinin və investisiyaların iqtisadi artıma təsirinin qiymətləndirilməsi üzrə yeni metodologiyanın ekspertlərin cəlb olunması ilə hazırlanması işləri həyata keçirilir.

### 9 ayda əsas kapitala 10,1 milyard manat sərmayə yatırılıb

İqtisadiyyat naziri Şahin Mustafayev çıxış edərək müşavirədə Prezident İlham Əliyevin bu ilin 9 ayının sosial-iqtisadi göstəricilərini müsbət qiymətləndirdiyini diqqətə çatdırıb. Belə ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən kompleks tədbirlər və köklü islahatlar nəticəsində bu dövrdə ÜDM 2,5 faiz, qeyri-neft ÜDM-i 3,5 faiz artıb. ÜDM-də qeyri-neft sektorunun payı 60,7 faiz təşkil edib. Sənayedə 1,7 faiz, qeyri-neft sənayesində 15,6 faizlik məhsul istehsalının artımına nail olunub. Toxuculuq sənayesi 39,2 faiz, kimya sənayesi 20,6 faiz, tütün məmulatları istehsalı 78,5 faiz, qida məhsulları istehsalı 15,1 faiz, içki istehsalı 40,4 faiz, ağac emalı və istehsalı 99 faiz, mebel istehsalı 29,5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 28,2 faiz, kənd təsərrüfatı 7,1 faiz, rabitə xidmətləri 16,4 faiz artıb. Tikinti sahəsində 5,6 faiz azalma olub.

Azərbaycanın xarici dövlət borcu ÜDM-in 17 faizini təşkil edir. Bu göstəriciyə görə ölkəmiz dünyada doqquzuncu yerdə qərarlaşıb. Bu ilin yanvar-sentyabr aylarında əsas kapitala 10,1 milyard manat sərmayə yönəldilib ki, onun da 6,3 milyard manatı qeyri-neft sektoruna, o cümlədən 1,2 milyard manatı qeyri-neft sənayesinə yatırılıb.

İnflyasiya 2,6 faiz təşkil edib, ərzaq məhsulları 3,5 faiz, qeyri-ərzaq məhsulları 1,3 faiz, xidmətlər 2,4 faiz bahalaşıb. Əhalinin gəlirləri 6,7 faiz artıb və inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

Doqquz ayda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə Azərbaycanın xarici ticarət dövriyyəsi 13,8 faiz artaraq 25,3 milyard dollar, xarici ticarət saldosu müsbət 4,5 milyrad dollar təşkil edib. Qeyri-neft ixracı 15,5 faiz artmaqla 1,4 milyard dollara çatıb, sənaye məhsullarının ixracında 13,1 faiz, kənd təsərrüfatı və emalı məhsullarının ixracında 18,6 faiz artıma nail olunub.

Bu dövrdə 186 ölkə ilə ticarət əlaqələri aparılıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 5,7 faiz çoxdur. Xarici iqtisadi fəaliyyətlə məşğul olanların sayında 81,4 faiz artım müşahidə olunub, ixrac məhsul çeşidlərinin sayı artaraq 2780-ə çatıb.

Ardı 3-cü səh.

## Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sumqayıt şəhərində avtomobil yollarının əsaslı təmiri işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,5 milyon (üç milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasında energetika sahəsində çalışan şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında energetika sahəsində uzunmüddətli səmərəli fəaliyyət göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Bayramov Kazım Bayram oğlu

**"Tərəqqi" medalı ilə**

Abbasov Zakir Allahverdi oğlu
Orucov Nüsrət Oruc oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

## Ə.Ş.Həsənovun Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əli Şamil oğlu Həsənov Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

## H.İ.Abutalıbovun Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Hacıbala İbrahim oğlu Abutalıbov Azərbaycan Respublikası Baş Nazirinin müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

# Səmimiliyini itirən jurnalistika

**Azərbaycan milli mətbuatını fikir nəhəngləri, söz korifeyləri yaradıblar!**
**Çox böyük çətinliklə: maliyyənin, mətbəə və şriftin, mürəttib və qəzet yayıcılarının, hətta qəzetə yazanların və yetərli oxucunun olmadığı bir zamanda!**

*Amma bütün çətinlik və maneələrə mətanətlə sinə gərərək millətə xidmət etmək, onu maarifləndirmək, gözünü açmaq, mövhumata üstün gəlmək üçün fədakarcasına meydana giriblər!*

*Hədə-qorxulara məhəl qoymadan, təqiblərdən çəkinmədən, ünvanlarına mütəmadi səslənən söyüş və təhqirlərə baxmadan, ölüm təhlükəsindən belə qorxmadan!*

Yorulmadan, usanmadan, yollarında büdrəmədən qələmləri və sözləri ilə savaşıblar!

**Çünki özləri əsl vətənpərvər ziyalı, prinsipial fikir və əqidə adamları, qorxmaz millət fədailəri idilər!**

*"...Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur ki, kağızın üstünə yazılmış o doğru sözlər qapı-pəncərələrdən o iman mənzilinə çata bilsin. Heç olmaz ki, doğru söz yerdə qalsın" deyən Həsən bəy Zərdabi sona qədər öz amalına sadiq qaldı.*

*"Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!"* söyləyən Cəlil Məmmədquluzadə də ömrünü milləti yolunda şam kimi yandırdı!

Biri maarifləndirərək, digəri tənqid edərək, gülə-gülə islah etməyə, gözlərini açmağa, elmə, mədəniyyətə və mərifətə yönəltməyə çalışdılar!

**Amma bu qələm əhillərinin hamısı öz əməllərində həm də səmimi idilər!**

**Çünki milləti sevdikləri, onun gələcəyini düşündükləri üçün hər çətinliyə dözürdülər!**

Ardı 3-cü səh.

# Prezident İlham Əliyev Baş Nazirin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib

*Əvvəli 1-ci səh.*

Ulu Öndər Heydər Əliyev tərəfindən irəli çəkilmisiniz, hələ sovet dövründə onun qərarı ilə yüksək vəzifələrə təyin olunmusunuz, müstəqillik dövründə 21 ildir ki, Baş Nazirin müavini vəzifəsində çalışırsınız, son 16 il ərzində mənim rəhbərliyimlə. Əlbəttə, sizə olan yüksək etimad onu göstərir ki, tutduğunuz vəzifələrdə işin öhdəsindən şərəflə gəlmisiniz. Ancaq, əlbəttə, həyat yerində durmur, yeni Baş Nazir təyin edilib, Nazirlər Kabineti qarşısında yeni vəzifələr qoyulub. Bir də ki, siz pensiya yaşına çatmısınız, 71 yaşınız var və əlbəttə, gənc kadrlara yer vermək üçün hesab edirəm ki, siz yaxşı nümunə göstərirsiniz. Ümid edirəm ki, iqtidar komandasında təmsil olunan digər yoldaşlara da bu, yaxşı bir örnək olacaqdır. Eyni zamanda, siz ictimai-siyasi həyatda fəal rol oynayırsınız və mənim tövsiyəmlə Yeni Azərbaycan Partiyası sizi sədrin müavini vəzifəsinə layiq görübdür. Bu, həm mənim tərəfimdən, eyni zamanda, partiya üzvləri tərəfindən sizin fəaliyyətinizə verilən yüksək qiymətdir və böyük etimaddır. Əminəm ki, siz komandanın etibarlı üzvü kimi bundan sonra da fəaliyyət göstərəcəksiniz. Hesab edirəm ki, partiya işində fəallığa daha böyük ehtiyac var. Mənim göstərişimlə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə addımlar atılmalıdır. Son vaxtlar siz bu sahəyə daha fəal qoşulmusunuz və bölgələrə səfərlər edirsiniz. Mənə göndərdiyiniz arayışlarda bölgələrdə mövcud vəziyyətlə bağlı məlumatlar və görüləcək işlər haqqında təkliflər verirsiniz.

Mən bir daha sizin uzun illər Azərbaycan naminə gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm. Əmin olduğumu bildirirəm ki, siz gələcəkdə ölkəmizin ictimai-siyasi həyatında öz sözünüzü deyəcəksiniz.

**Əli HƏSƏNOV:** Çox sağ olun, möhtərəm cənab Prezident. Məni qəbul etdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Həqiqətən, mən 51 illik fəaliyyətim dövründə 20 il ulu öndər Heydər Əliyevin, son 16 ildə isə Sizin rəhbərliyiniz altında çalışmışam. İndi ünvanıma dediyiniz sözlər mənim üçün ən böyük qiymətdir. İnsan üçün bundan böyük nə ola bilər?! Ümumiyyətlə, 20 il Ulu Öndərin, 16 il ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin, - hansı ki, bu gün dünya prezidentləri arasında öz layiqli yerini tutub və onun heç əvəzi də yoxdur, - rəhbərliyi altında çalışasan və belə bir Prezidentdən bu cür qiymət almaq, hansı ki, Siz sadaladınız, insana bundan böyük nə lazımdır?! Ulu Öndərimizin və Sizin rəhbərliyiniz altında işləmək mənim ən böyük qazancım olub. Ömrümün axırınacan Əliyevçiyəm və Əliyevçi də olaraq qalacağam. Ölkə Prezidentinin bir vəzifəli şəxs haqqında bu cür sözlər söyləməsindən, onun gördüyü işlərə bu cür qiymət verməsindən yaxşı nə ola bilər?!

**Prezident İlham ƏLİYEV:** Siz buna layiqsiniz, Əli müəllim, mən bunları tam səmimi deyirəm. Əlbəttə ki, gündəlik formatda Prezidentdən daha çox tənqidi fikirlər səslənir, bu da təbiidir. Amma mən hər bir adamın, hər bir vəzifəli şəxsin fəaliyyətini obyektiv qiymətləndirirəm və sizin ünvanınıza dediyim sözlər tam həqiqətə uyğundur.

**Əli HƏSƏNOV:** O da Sizin böyüklüyünüzdür, bir daha nümayiş etdirirsiniz ki, Siz həqiqətən hər bir Azərbaycan vətəndaşının qarantısınız. Mən də Azərbaycan vətəndaşıyam və bunu bir daha nümayiş etdirirsiniz. Siz bütün sahələrdə islahatlar aparmısınız. Bəli, gənclərə yol verilməlidir. Bəli, ulu öndər Heydər Əliyev də bu addımları atırdı. Ulu Öndər Heydər Əliyevin siyasəti bu gün tam davam edir bütün istiqamətlərdə. Nə əldə etmişiksə, təbii ki, onun hamısının kökündə, əsasında Ulu Öndər Heydər Əliyevin siyasəti durur. Allaha çox şükürlər olsun ki, Siz də bunu çox böyük ləyaqətlə, çox böyük bacarıqla həyata keçirirsiniz. Bu gün Siz Azərbaycanı dünyaya tanıtdırırsınız. Götürək, Mehriban xanımın işlərini. Mehriban xanım ən yüksək keyfiyyətə, humanistlik keyfiyyətinə, ən yüksək siyasi keyfiyyətə malik bir xanımdır. Mehriban xanım Azərbaycan xanımını dünya xanımları sırasında ən yüksək zirvəyə qaldırdı. Sizin sayənizdə bu gün bütün dünya Azərbaycandan danışır. Bunu necə görməmək olar? O müxalifətdəkilər aldıqları vəsaiti doğrultmaq, onları silmək üçün canfəşanlıq edirlər, ağızlarına gələni danışırlar. Bütün Azərbaycan ictimaiyyəti belə qeyri-obyektiv məsələlərə qarşı münasibət bildirməlidir, hər kəs mövqeyini bildirməlidir.

Məni bu gün qəbul etdiyinizə, ünvanıma bu cür xoş sözlər dediyinizə görə Sizə bir daha təşəkkür edirəm. Necə ki, Ulu Öndərin gördüyü işlərin əyani nəticələri indi daha aydın görünür, Sizin də gördüyünüz işlərin nəticələri hər il, 10 il, 50 il bundan sonra daha aydın görünəcəkdir. Ona görə bir daha Sizə təşəkkür edirəm. Sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Əli müəllim.

# Prezident İlham Əliyev Baş Nazirin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul edib

*Əvvəli 1-ci səh.*

Uzun illərdir ki, siz müxtəlif vəzifələrdə çalışırsınız, həm Baş Nazirin müavini vəzifəsində, 17 il Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi və son il yarımda yenə də Baş Nazirin müavini işləyirsiniz. Bilirəm ki, siz həmişə Ulu Öndər Heydər Əliyevə sadiq olmusunuz. Heydər Əliyev üçün ən ağır dövrlərdə siz öz sözünüzü demisiniz. Bəzi gənclər əlbəttə ki, bunu bilmir və bəzi adamlar bunu yaddan çıxarır. Amma mən heç vaxt bunu unutmuram ki, o vaxt süni şəkildə ortalığa atılmış yaş senzi məsələsinə qarşı siz qəti etiraz bildirmisiniz. O vaxt Ulu Öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa heç kimi rəhbər vəzifəsində görmürdü. Onun gələcək fəaliyyətini əngəlləmək üçün o vaxt partokrat hakimiyyət yaş senzi kimi çox cəfəng bir qaydanı tətbiq etmişdi. Səhv etmirəmsə, 65 yaşdan yuxarı olan şəxs Prezident ola bilməzdi. Ulu Öndərin də o vaxt 69 yaşı vardı və yadımdadır, siz parlamentin qarşısında kütləvi etiraz aksiyaları təşkil etmisiniz, öz sözünüzü demisiniz, heç kimdən qorxmamısınız. Çünki o vaxt repressiya təhlükəsi çox böyük idi və Heydər Əliyevin hakimiyyətə gəlməsini əngəlləmək istəyənlər müxtəlif çirkin əməllərə əl atmışlar. Heydər Əliyevin yaxın silahdaşı Əjdər Xanbabayevi vəhşicəsinə qətlə yetirdilər, özü də nə vaxt? Həmin gün ki, Heydər Əliyev Moskvadan Bakıya gəlməli idi. Mən ondan bir gün qabaq Bakıya gəlmişdim ki, onu qarşılayım. Onun gəlişini əngəlləmək, ona hədə-qorxu gəlmək üçün günahsız bir insanı, ziyalını - Əjdər Xanbabayevi həmin o dəstə qətlə yetirdi. Düzdür, sonra onu öldürənlər öz layiqli cəzalarını aldılar və Heydər Əliyevin Azərbaycana qayıtmasını heç kim əngəlləyə bilmədi. Bütün təhlükələrə baxmayaraq, o, Bakıya gəldi, öz sözünü dedi. İndiki bəzi dırnaqarası özünü lider adlandıran qorxaqlardan fərqli olaraq, o, hər bir təhlükəyə, hər bir məhrumiyyətə getməyə hazır idi. Onun böyüklüyü bundadır və siz Hacıbala müəllim, o vaxt öz sədaqətinizi göstərmisiniz, həm Ulu Öndərə, həm Vətənə, dövlətə, xalqımıza. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsi bizi çox böyük fəlakətdən qorudu. Təsadüfi deyil ki, Ulu Öndər Sizə böyük vəzifələr təklif etmişdir, Baş Nazirin müavini vəzifəsinə təyin etdi, ondan sonra Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, ondan əvvəl isə siz Suraxanı rayonunda icra başçısı işləmisiniz. Yadımdadır, sizin o vaxt fəaliyyətiniz də bəziləri üçün bir növ təəccüblü idi, çünki bildiyimə görə, qapılarınız açıq idi, kim istəyirdi gəlirdi. Vətəndaşların problemləri ilə maraqlanırdınız və bu, bir novatorluq idi. İndi bəziləri bunu yaddan çıxarır, amma mən yaddan çıxarmıram və bu gün sizi dəvət etmişəm ki, bunu sizə deyim və Azərbaycan vətəndaşları da bunu bilsinlər.

Ancaq həyat yerində durmur, qarşıya yeni vəzifələr qoyulur, yeni çağırışlar qarşımızda durur. Yaşınız da artıq 75-i keçibdir və əlbəttə ki, daha gənc nəslə yol vermək lazımdır. Ona görə sizin ərizə ilə mənə müraciətinizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, pensiya yaşına çatmış, hər halda 70 yaşını keçən iqtidarda təmsil olunanlar da yəqin ki, sizin nümunənizi təkrar edəcəklər. Hər halda mən buna ümid edirəm. Siz Yeni Azərbaycan Partiyasında da fəal iş görürsünüz. Hesab edirəm ki, bundan sonra da partiya tərkibində siz öz fəaliyyətinizi davam etdirməlisiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram və gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm.

**Hacıbala ABUTALIBOV:** Çox sağ olun. Minnətdarlığımı bildirirəm. Birinci növbədə Ulu Öndərə olan sevgim, məhəbbətim Leninqradda təhsil aldığım günlərdən başlayıb. Düzdür, onda mən onunla birbaşa görüşməmişdim. Amma Siyasi Büro üzvlərinin şəkillərinin içərisində ikinci yerdə Heydər Əliyevimizin şəklini görəndə bütün azərbaycanlılar fəxr edirdilər. Bizə hamı hər yerdə Heydər Əliyevçilər deyirdilər. Biz bununla fəxr edirdik. Heydər Əliyevi hakimiyyətə xalq gətirdi. Azərbaycan xalqı düşdüyü bəladan çıxmaq üçün yalnız və yalnız Ulu Öndəri rəhbərlikdə görə bilərdi və görürdü də. Ulu Öndər çox ağır vəziyyətdə olan Azərbaycanı xilas etmək üçün özünü qurban verdi. Gecəsini gündüzünə, gündüzünü gecəsinə qatırdı, Naxçıvanda gecə lampa işığında işləyirdi, soyuqda Azərbaycanı belə bir ağır vəziyyətdən çıxarmaq yollarını araşdırırdı. Hakimiyyətə gələndən sonra Heydər Əliyev məni dəvət etdi və Suraxanıda vəziyyətin çox ağır olduğunu deyərək, məni bu rayonun icra hakimiyyətinin başçısı vəzifəsinə təyin etdi. İnsanın həyatında elə bir hal olur ki, o hal insanın ən xoşbəxt günü sayılır. Mənim də ən xoşbəxt günüm Heydər Əliyevlə əl-ələ salamlaşmağım olub. Suraxanıda işlədiyim vaxt Heydər Əliyevimiz və Siz Amerikadan qayıtmışdınız.

**Prezident İlham ƏLİYEV:** Müalicədən qayıtmışdı, 1999-cu il, yadımdadır o günlər, xatırlayıram.

**Hacıbala ABUTALIBOV:** Bəli, qurbanlar kəsilirdi. Üç gündən sonra Yeni Suraxanıya gəldi, Heydər məscidini açdı, bir aydan sonra məni kabinetə dəvət etdi və dedi ki, indi səni Baş Nazirin müavini təyin edirəm. Bir ildən sonra məni Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin etdi. Bakı Şəhər İcra Hakimiyyətində Siz dediniz, düz 17 il yarım işlədim. Heydər Əliyevin böyük arzusu var idi: Bakı təmizlənməlidir, Bakı abadlaşmalıdır, Bakı yaşıllaşmalıdır, Bakı gül-çiçəyə çevrilməlidir. Gecə 3-də, 5-də zəng edirdi, yatmağı yox idi, gecəsi-gündüzü yox idi. Sonra Sizin hakimiyyətiniz dövründə işlədim. Sizin göstərişlərinizin, Bakının belə gözəl vəziyyətə çatdırılması üçün Sizin arzularınızın yerinə yetirilməsində əlimdən gələni edə bildim. Bakı gözəlləşdi və Siz də həmişə demisiniz və deyirsiniz ki, Bakı dünyanın ən gözəl şəhəridir. Əgər Heydər Əliyevimiz Azərbaycan dövlətini yaratdısa, dövlətçiliyin banisidirsə, Siz inkişaf etmiş Azərbaycanın banisisiniz. Azərbaycanda sabitliyin qiyməti yoxdur. Çox sağ olun ki, Azərbaycan belə bir inkişafdadır. Minnətdarlığımı bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, Hacıbala müəllim.

**Hacıbala ABUTALIBOV:** Çox sağ olun.

## Azərbaycan Respublikasının estrada ifaçılarına "Xalq artisti" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan estradasının inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə "Xalq artisti" fəxri adı verilsin:

Ağayeva Tünzalə Qabil qızı
Mirbabayev Mir Yusif Mir Heydər oğlu
Nəcəfova Röyalə Yaqub qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

## Q.Q.Qurbanovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Qüdrət Qəmbər oğlu Qurbanov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2019-cu il*

## Azərbaycan Milli Məclisinin Sədri Yaponiyaya səfərə gedib

Milli Məclisin Sədri Oqtay Əsədovun rəhbərliyi ilə nümayəndə heyətimiz Yaponiya İmperatoru Naruhitonun taxta çıxma mərasimində iştirak etmək üçün bu ölkəyə səfərə gedib. Bu barədə AZƏRTAC-a parlamentin mətbuat xidmətindən məlumat verilib.

Mərasimdə 174 ölkəni təmsil edəcək iki mindən çox nümayəndənin iştirak edəcəyi gözlənilir.

Xatırladaq ki, Yaponiyanın indiki İmperatoru Naruhito cari il mayın 1-də taxta çıxıb. Həmin vaxt ona hakimiyyətin rəmzi hesab edilən əsas dövlət və İmperatorun şəxsi möhürləri, həmçinin müqəddəs reqaliyalar təqdim edilib. İmperatorun taxta çıxması üzrə komissiyanın qərarına əsasən, mərasimin əsas hissəsinin oktyabrın 22-də keçirilməsi qərara alınmışdı.

# *21 oktyabr 1987-ci il:* Heydər Əliyevin SSRİ rəhbərliyindən istefası və anti-Azərbaycan ssenarilərinin işə düşməsi

1987-ci ilin 21 oktyabr günü SSRİ-də yaşayan ermənilər və digər anti-Azərbaycan qüvvələr xüsusi sevinc hissinə qərq olmuşdular. Çünki həmin gün görkəmli siyasi və dövlət xadimi, SSRİ-nin ən qüdrətli liderlərindən biri kimi tanınan Heydər Əliyev Mixail Qorbaçovun yürütdüyü yanlış xəttə, onun anti-Azərbaycan və antimüsəlman siyasətinə etiraz əlaməti olaraq tutduğu bütün vəzifələrdən istefa vermişdi.



Məlum olduğu kimi, Heydər Əliyev 1976-cı ilin mart ayında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büronun üzvü seçilmiş, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdi. O, həmin yüksək vəzifədə çalışdığı dövrdə 60-dan çox ümumittifaq nazirliyinin, komitə və digər mərkəzi idarələrin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirmiş və bu sahələrin işinə əsl dinamizm gətirmişdi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Facebook" sosial şəbəkəsindəki səhifəsində paylaşdığı statusda yer alıb.

Statusda deyilir: "Heydər Əliyevin istefaya göndərilməsinin əsas səbəblərindən biri də SSRİ-nin siyasi rəhbərliyini o zaman ələ almış erməni lobbisinin təsiri və təzyiqi idi. Elə onun SSRİ rəhbərliyindən kənarlaşdırılmasından dərhal sonra ermənilər Mixail Qorbaçovun xeyir-duası ilə Qarabağ avantürasına start vermiş, qısa müddət sonra - 1987-ci il noyabrın 18-də Qorbaçovun müşavirlərindən biri olan akademik Abel Aqanbekyan Fransanın "Humanite" qəzetinə müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini qaldırmışdı.

Azərbaycanın ərazi bütövlüyünün pozulması, ermənilərin respublikamızın ərazisinin bir hissəsini işğal etməsi planı xeyli əvvəllərdən hazırlanmışdı. Həm də bu plan təkcə Qorbaçovun yanında və Kremldə mərkəzi rəhbərlikdə oturan ermənilər və ermənipərəst qruplar tərəfindən deyil, bütün dünyadakı anti-Azərbaycan və anti-türk dairələr tərəfindən müdafiə edilirdi, onu həyata keçirmək üçün ciddi hazırlıq işləri görülürdü. Heydər Əliyevin Kremldə, SSRİ-nin əsas rəhbərlərindən biri olması qarşıda dayanan ən əsas maneə idi. Odur ki, Qorbaçov ermənilərin təhriki ilə, ilk növbədə, Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasına çalışırdı və iki il müddətində bu istiqamətdə açıq-aşkar formada xüsusi canfəşanlıq göstərirdi. Təsadüfi deyil ki, Qorbaçov Heydər Əliyevə istefaya getməsini təklif edəndə, Ulu Öndər bu təklifə görə heç təəccüblənmədiyini bildirmiş, böyük mətanət hissi və soyuqqanlılıqla illərdir rəhbər şəxslərdən biri olduğu SSRİ rəhbərliyindən ayrılmışdı. SSRİ kimi böyük bir ölkədə vicdanla çalışan, işində heç vaxt ciddi qüsuru olmayan, bütün dünyada böyük siyasətçi və bacarıqlı təşkilatçı kimi tanınan, əhali arasında böyük siyasi nüfuza malik olan belə bir görkəmli siyasi və dövlət xadiminin istefaya göndərilməsi haqda məlumatlar ildırım sürəti ilə bütün dünyaya yayılmış və böyük təəssüf doğurmuşdu.

SSRİ-yə rəhbərliyi dövründə Heydər Əliyev təkcə istedadlı idarəçiliyi və uzaqgörən siyasəti ilə bütün sovet vətəndaşlarının rəğbətini qazanmamışdı, o, həm də uzun müddət Kremldə bütün türk-müsəlman xalqlarının himayədarı, onlara qarşı mərkəzi hakimiyyət dəhlizlərində hazırlanan əksər məkrli planların qarşısına keçilməz sədd çəkən qətiyyətli və vətənpərvər bir insan kimi sevilirdi. Azərbaycana qarşı hazırlanan və həyata keçirilməsi üçün məqam gözlənilən bütün məkrli planların reallaşmasına da məhz Heydər Əliyev mane olurdu. Əlbəttə ki, onun belə qətiyyətli siyasi mövqeyi SSRİ rəhbərliyində təmsil olunan anti-Azərbaycan qüvvələrdə ciddi narahatlıq doğururdu. Qeyd etməliyəm ki, o dövrdə Sov.İKP MK Siyasi Bürosunun üzvü, siyasi rəhbərlikdə böyük nüfuz sahibi olan Heydər Əliyevin tez-tez dəyişilən SSRİ rəhbərliyində birinci şəxs olması ideyası da artıq xalq içərisində, yüksək dairələrdə müzakirə olunur və etiraf edilirdi. SSRİ-nin görkəmli siyasi xadimlərindən olan Andrey Qromıko öz oğlu ilə söhbətində qeyd edirdi ki, "Bizim Siyasi Büroda ancaq üç adam nisbətən cavandır: Romanov, Qorbaçov və Əliyev. Axırıncı mənə daha xoş gəlir. Onun vaxtında Azərbaycan, xüsusən respublikanın kənd təsərrüfatı çox sürətlə inkişaf etmişdir. Əliyev gözəl təşkilatçıdır, təmiz və abırlı adamdır. Amma təəssüf ki, onun namizədliyi istisna olunur...". Oğlunun "Nəyə görə, milliyyətinə görəmi?" - sualına cavabında A.M.Qromıko açıq şəkildə etiraf etmişdi: - "Bu məsələdə - hə. Milliyyətinə görə".

Beləliklə, 1987-ci il oktyabrın 21-də Heydər Əliyevin istefaya məcbur edilməsi ilə həm onun dinamik sosial-iqtisadi rəhbər fəaliyyətindən bəhrələnən bütün sovet vətəndaşları, həm çoxmillətli SSRİ-nin ədalətli milli-dini siyasətinin əsas qarantlarından biri kimi çıxış etməsindən faydalanan müttəfiq və muxtar respublikaların qeyri-rus əhalisi, həm də, ilk növbədə, canından çox sevdiyi doğma xalqı - Azərbaycan Respublikasının vətəndaşları özlərinin əsl himayədarını itirdilər. Əlbəttə ki, Heydər Əliyevin istefası qeyd etdiyim bütün kateqoriyadan olan insanlar üçün böyük itki oldu. Lakin onun istefasından ən çox ziyan görən, əlbəttə ki, doğma Azərbaycan oldu. İstefadan az keçməmiş xalqımız üçün heç də xoş olmayan məkrli ssenarilər dövriyyəyə buraxıldı və anti-Azərbaycan planlara start verildi. Amma dahi şəxsiyyət və fenomenal siyasətçi kimi Ulu Öndər geri çəkilmədi, ruhdan düşmədi, məğlub olmadı, xalqının ağır günlərində xilas meydanına atılaraq, öz tarixi missiyasını həyata keçirdi. Azərbaycanı bir dövlət olaraq parçalanma və məhvolmadan xilas etdi, müstəqil dövlət yaratdı, vətəndaş həmrəyliyinə və dövlətçilik ətrafında xalqın monolit birliyinə nail oldu".

# *Əli ƏHMƏDOV:* "Belə qanunsuz aksiyaların məqsədi ölkəmizdəki sabitliyi pozmaq, qarşıdurma yaratmaqdır"



Oktyabrın 21-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində toplantı keçirilib. AZƏRTAC xəbər verir ki, toplantıda çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov bildirib ki, oktyabrın 19-da bəzi müxalifət partiyaları tərəfindən Bakı şəhərində qeyri-qanuni aksiyanın keçirilməsi cəhdinə geniş münasibət bildirməyə ehtiyac var.

YAP-ın bu barədə bəyanat yaydığını deyən Əli Əhmədovun sözlərinə görə, Azərbaycan cəmiyyəti, o cümlədən Yeni Azərbaycan Partiyası ölkəmizdə sabitliyin, əmin-amanlığın pozulmasına yönəlmiş qanunsuz aksiyaların keçirilməsinə özünün sərt, eyni zamanda, ədalətli mövqeyini bildirməlidir.

"Belə qanunsuz aksiyaların məqsədi ölkəmizdəki sabitliyi pozmaq, qarşıdurma yaratmaqdır" deyən Əli Əhmədov bildirib ki, destruktiv qrupların oktyabrın 19-da Bakının mərkəzində qanunsuz aksiya keçirməyə cəhd etməsi onların xarici dairələr tərəfindən idarə olunduğunu bir daha ortaya qoydu. Onun sözlərinə görə, Azərbaycanda hər hansı müxalifət partiyası tərəfindən aksiyaların keçirilməsi nə Yeni Azərbaycan Partiyası, nə də ölkə iqtidarı üçün narahatlıq mənbəyi deyil və ola bilməz. Amma narahatlıq yaradan bəzi məqamlar var ki, cəmiyyətə bu barədə fikirlərin çatdırılmasına ehtiyac var.

YAP sədrinin müavini diqqətə çatdırıb ki, qanunsuz aksiyanın Prezident İlham Əliyevin oktyabr ayının əvvəlində Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında və Aşqabadda MDB Dövlət Başçıları Şurasının sammitində səsləndirdiyi qətiyyətli bəyanatlar, eləcə də bu ilin 9 ayının sosial-iqtisadi inkişafının nəticələrinə həsr olunmuş müşavirədə bildirdiyi fikirlərdən bir neçə gün sonra təşkil edilməsi heç də təsadüfi deyil. "Görünür ki, Azərbaycana xaricdən müxtəlif üsullarla təsir göstərmək istəyən maraqlı dairələr çirkin niyyətlərini həyata keçirmək üçün bu işə əl atıblar. Ölkədə bütün azadlıqların təmin olunduğu, sərbəst toplaşmaq azadlığının təmin olunması üçün yerlərin ayrılmasına baxmayaraq, müxalifət partiyaları mitinqləri icazəsiz şəkildə, razılıq verilməyən yerdə keçirmək niyyətinə düşüb və buna cəhd ediblər. Onlara verilən tapşırığa uyğun olaraq qarşıdurma yaratmaqla ölkədəki sabitliyi pozmağa cəhdlər göstərirlər" deyə Əli Əhmədov bildirib. Aydın şəkildə hiss olunur ki, qanunsuz aksiyanı təşkil edənlər kimlərsə tərəfindən idarə olunur. Onlardan bu işi tələb edənlər hesabat da alırlar. Kütləvi informasiya vasitələrində bu barədə məlumat yayılıb. Məqsədli şəkildə onların tapşırıqlarını yerinə yetirənlər bu işə əl atırlar. Dünyanın hər yerində mitinqin keçirilməsi üçün ayrıca yerlər ayrılır. Bu da ictimai təhlükəsizliyin təmin edilməsi üçün əsasdır.

Qanunsuz aksiyanın qarşısının alınmasında polisin davranışlarını yüksək qiymətləndirən Əli Əhmədov bildirib ki, hüquq mühafizə orqanları ölkə qanunlarını pozan qruplara qarşı qanun çərçivəsində tədbirlər görməlidir.

Bu gün Azərbaycanın dinamik inkişaf etdiyini deyən Əli Əhmədov cari ildə əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. O qeyd edib ki, belə bir şəraitdə destruktiv qüvvələrin ölkəmizdə sabitliyi pozmaq cəhdləri yolverilməzdir.

Mili Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında bildirib ki, Azərbaycanda sərbəst toplaşmaq azadlığı ilə bağlı qanun Avropa standartlarına uyğundur. Onun sözlərinə görə, qanunda əks olunan müddəalar Avropa İnsan Haqları Konvensiyasında öz əksini tapır. Ə.Hüseynli deyib ki, radikal müxalifətin qanunsuz hərəkətlərinə cəmiyyətimizin bütün təbəqələri, o cümlədən ictimai təşkilatlar, ziyalılar və b. münasibət bildirməlidir.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov isə bildirib ki, bəzi şər qüvvələr Azərbaycanı xaosa sürükləmək istəyir və biz həmin şər qüvvələrlə mübarizənin içərisindəyik. O qeyd edib ki, Azərbaycan dəfələrlə beynəlxalq təşkilatların ikili standartları ilə üzləşib: "Həmin qüvvələr indi də beynəlxalq təşkilatlar vasitəsilə deyil, daxildən Azərbaycanın sabitliyini pozmağa, ölkəni xaosa sürükləməyə cəhd edirlər. Ən faciəlisi isə odur ki, bunu demokratiya, insan haqları, qanunun aliliyi pərdəsi ilə örtməyə cəhd edirlər".

Komitə sədri deyib ki, Avropa İttifaqı Azərbaycanda radikal müxalifətin keçirdiyi qanunsuz aksiyanı təhlil etməmiş bəyanat verib. Onun sözlərinə görə, Avropa İttifaqına daxil olan ölkələrdə, onun mərkəzi olan Brüsseldə nümayişçilərə güc tətbiq edilir. Fransada baş verən hadisələrdə 11 nəfər həlak oldu, gözləri çıxan insanlar var idi. Biz beynəlxalq təşkilatlara öz müraciətimizi göndərməliyik. "Biz Avropa Parlamentinə, Avropa Şurasına, ATƏT və digər təşkilatlara müraciət göndərib deməliyik ki, qanunun aliliyi haqqında danışan təşkilatlar qanunun aliliyini pozan insanları müdafiə etməməlidirlər. Avropanın özündə baş verən hadisələr ikili standartların nə qədər yüksək səviyyədə olduğunu göstərir. Mən əminəm ki, Azərbaycan xalqı hər şeyi çox gözəl görür" deyə Səməd Seyidov vurğulayıb.

Toplantıda həmçinin Milli Məclisin komitə sədri, YAP Siyasi Şurasının üzvü Hadi Rəcəbli, Milli Məclisin deputatları Elman Məmmədov və Kamilə Əliyeva, YAP Sabunçu rayon təşkilatı Gənclər Birliyinin üzvü Misirxan Həsənov çıxış edərək radikal müxalifətin qanunsuz hərəkətlərini pisləyiblər.

# İqtisadi islahatlar real nəticələr verir

## Şahin MUSTAFAYEV: "Prezident İlham Əliyevin hər bir tapşırığı üzrə ayrıca əhatəli Tədbirlər Planı hazırlanır"

Əvvəli 1-ci səh.



2020-ci ildə qeyri-neft ixracının 20 faiz artımı proqnozlaşdırılır.

Şahin Mustafayev vurğulayıb ki, müşavirədə dövlət başçısı qarşıdakı dövr üçün mühüm və konkret vəzifələr müəyyənləşdirib. Belə ki, Prezident İlham Əliyev iqtisadi inkişafı şərtləndirən islahatların dərinləşdirilməsi, qeyri-neft sektorunun inkişafının daha da sürətləndirilməsi hesabına yüksək iqtisadi artıma nail olunması, bu sahəyə daha çox xarici investisiyaların cəlb edilməsi, sosial-iqtisadi inkişaf proqnozlarının hazırlanması və təhlilində əhatəliyin və dəqiqliyin təmin olunması, Sahibkarlığın İnkişafı Fondunun, bank sektorunun və investisiyaların qeyri-neft sektorunun inkişafında və məşğulluğun artırılmasında rolunun gücləndirilməsi, büdcə xərclərinin səmərəliliyi ilə bağlı əsaslı təhlillərin aparılması, şəffaflığın təmin edilməsi və s. istiqamətlərdə tapşırıqlar verib.

### Sənaye parklarında 564 milyon manatlıq məhsul istehsal edilib

İqtisadiyyatın aparıcı sahələrinin inkişafı istiqamətində görülən işlərdən danışan Şahin Mustafayev dövlət başçısının sənayeləşmə siyasətinə uyğun olaraq, sənaye parkları və məhəllələrinin yaradılması, rezidentlərin fəaliyyətinin genişləndirilməsi və yeni iştirakçıların cəlb edilməsi tədbirlərinin daha effektiv şəkildə davam etdirildiyini bildirib.

Hazırda mövcud 5 sənaye parkında 44 rezident qeydiyyatdan keçib ki, bunlardan da artıq 24-ü fəaliyyət göstərir. İndiyədək sənaye parklarına 5,7 milyard manat investisiya yatırılıb, 9 minə yaxın iş yeri açılıb. Sənaye parklarına rezidentlər tərəfindən daha 673 milyon manat yatırılması və əlavə olaraq 1,5 mindən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur. Sənaye parklarında istehsal olunan məhsullar daxili bazarla yanaşı, xarici ölkələrə də ixrac olunur. Bu ilin 9 ayında sənaye parklarında 564 milyon manatlıq məhsul istehsal edilib ki, bunun 233 milyon manatlıq hissəsi ixrac olunub.

Sənayenin inkişafında yeni və mütərəqqi mexanizmlərdən olan sənaye məhəllələrinin təşkili davam etdirilir. Ölkənin regionlarında 4 sənaye məhəlləsi yaradılıb. Bu sənaye məhəllələrində 38 rezident qeydiyyatdan keçib və bunlardan 22-si artıq fəaliyyət göstərir. Sənaye məhəllələrinə indiyədək sahibkarlar tərəfindən 53,8 milyon manat investisiya yatırılıb, 650-dən çox iş yeri açılıb. Sənaye məhəllələrinə daha 90 milyon manatdan çox sərmayə yatırılacaq ki, bu da əlavə olaraq 1400-ə yaxın yeni iş yerinin açılmasına imkan yaradacaq.

Hazırda ölkənin digər bölgələrində də sənaye zonalarının yaradılması ilə bağlı araşdırma və təhlillər aparılır. Bu ilin sonunadək bölgələrdə daha 2 sənaye zonasının (sənaye parkı və ya məhəlləsi) təşkili barədə təkliflər aidiyyəti üzrə təqdim ediləcək.

### İnvestisiya fəaliyyəti haqqında yeni qanun layihəsi hazırlanır

İclasda dövlət investiya proqramı çərçivəsində görülən işlər müzakirə edilib, dövlət vəsaitlərindən istifadənin səmərəliliyinin artırılması, nəzarətin daha da gücləndirilməsi üçün beynəlxalq təcrübə nəzərə alınmaqla yeni mexanizmlərin tətbiqinin əhəmiyyətli olacağı vurğulanıb.

Qeyd edilib ki, investisiya qanunvericiliyinin daha da təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlanıb. Özəl sərmayə qoyuluşunun prioritetliyi nəzərə alınaraq, iqtisadiyyatın investisiya cəlbediciliyinin stimullaşdırılması məqsədilə investisiya fəaliyyəti haqqında yeni qanun layihəsi və birbaşa xarici investisiyaların təşviqinə dair Strategiya, "Azərbaycana sərmayə" ("İnvest in Azerbaijan") və "Azərbaycanda ilk" ("First in Azerbaijan") təşviq mexanizmləri, ölkədə fəaliyyət göstərən müəssisələrin qlobal dəyər zəncirlərinə qoşulmasına dair Tədbirlər Planı hazırlanıb.

Bundan başqa, Türkiyə, Çin və digər ölkələrdə Azərbaycanın investisiya imkanlarının geniş təqdimatı nəzərdə tutulur. Növbəti illərdə özəl investisiyaların orta hesabla 11 faizlik artımı gözlənilir.

Kollegiyada ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar işlərin sürətləndirilməsi barədə müvafiq tapşırıqlar verilib. İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu qeyd edən iqtisadiyyat naziri bildirib ki, indiyədək 346 sahibkara investisiya dəyəri 3,9 milyard manata yaxın olan layihələr üzrə 407 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 2940 təsdiqedici sənəd verilib. Layihələrin 59 faizi sənaye, 40 faizi kənd təsərrüfatı, 1 faizi isə turizm sahələrini əhatə edir. Bu layihələrin icrası nəticəsində 27 mindən çox iş yerinin açılacağı gözlənilir. Artıq 245 sahibkarlıq subyekti üzrə 270 layihə fəaliyyətə başlayıb və 19 minə yaxın iş yeri açılıb. 9 ayda isə sahibkarlara investisiya dəyəri 807,6 milyon manat olan layihələr üzrə 75 investisiya təşviqi sənədi verilib, texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün ümumilikdə 730 təsdiqedici sənəd təqdim edilib.

### Sahibkarlara 130 milyon manatlıq güzəştli kredit verilib

Beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizin nəqliyyat-tranzit qovşağına çevrilməsi Prezident İlham Əliyevin iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur.

Bu ilin 9 ayında ölkənin nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi nəticəsində yük daşımaları 1,6 faiz artıb. Bu dövrdə qeyri-neft tranzit daşımaları 43 faiz artmaqla 2,1 milyon tondan çox olub. "Şimal-Cənub nəqliyyat dəhlizi" ilə tranzit daşımaların həcmində 77 faiz, "Şimal-Qərb nəqliyyat dəhlizi" ilə tranzit daşımalarda 53 faiz artım qeydə alınıb. Bu sahədə işlərin səmərəliliyinin daha da yüksəldəcək, əlavə iqtisadi artım üçün yeni imkanlar yaradacaq.

İclasda qeyd olunub ki, bu ilin 9 ayında da özəl sektorun inkişafı, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilib. Bu dövrdə İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən müvəkkil kredit təşkilatları vasitəsilə ümumi dəyəri 450 milyon manat olan 887 sahibkara geri qaytarılan vəsaitlər hesabına 130 milyon manat, o cümlədən 857 kiçik və orta həcmli layihəyə 24 milyon manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 3800-dək yeni iş yerinin açılmasına imkan yaradır. Güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye istehsalı və digər sahələrin, 66 faizi regionların, 34 faizi isə Bakı qəsəbələrinin payına düşür. Bu ilin 9 ayı ərzində fondun güzəştli kreditlərindən istifadə etməklə yaradılan 19 müəssisə istifadəyə verilib.

Əlavə iqtisadi artım mənbələrinin yaradılmasında və ixracın genişləndirilməsində stimullaşdırıcı tədbirlərdən olan güzəştli kreditləşdirmə həyata keçirilib, logistik mərkəzlərin yaradılması işlərinin davamı olaraq son illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 400 hektardan çox ərazidə müasir istixana və 9,6 min hektar ərazidə intensiv bağçılıq təsərrüfatlarının yaradılmasına 313 milyon manat, ümumi tutumu 353 min ton olan logistik mərkəzlərin təşkilinə 180 milyon güzəştli kredit verilib. Bu isə, ixracda kənd təsərrüfatı məhsullarının ixrac həcminin artmasına müsbət təsir göstərir.

İxracın dəstəklənməsi məqsədilə ilin 9 ayında 8 beynəlxalq sərgidə sahibkarların vahid ölkə stendi ilə iştirakı təmin edilib, müxtəlif ölkələrə 7 ixrac missiyası təşkil olunub, 90 sahibkarlıq subyektinə 16 ölkəyə 120,4 milyon dollar dəyərində məhsul ixracına görə 7,2 milyon manat ixrac təşviqi ödənilib.

Əlavə iqtisadi artım resurslarının cəlb olunması işlərinin tərkib hissəsi olaraq ölkənin 33 rayonunda 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Ümumi dəyəri 764 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 192 milyon manat dövlətin güzəştli kredit vəsaitləri ayrılıb. Əlavə olaraq 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib. İnvestisiya təşviqi sənədi hesabına qənaət olunmuş 25,2 milyon manat vəsait layihələrin icrasına yönəldilib. Aqroparklardan 28-i artıq istifadəyə verilib, ilin sonunadək daha 5-nin istifadəyə verilməsi gözlənilir.

### Ölkə üzrə KOB dostlarının sayı 18-ə çatdırılıb

İclasda mikro, kiçik və orta sahibkarlığın (KOB) iqtisadiyyatda rolunun artırılmasının sosial-iqtisadi inkişaf strategiyasının prioritetlərindən olduğu diqqətə çatdırılıb. Bu baxımdan KOB-lara dəstək məqsədi ilə yaradılmış İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən 2019-cu ilin yanvar-sentyabr ayları ərzində sahibkarların məlumatlandırılması, onlara müxtəlif xidmətlərin göstərilməsi, yeni dəstək mexanizmlərinin yaradılması, KOB-ların maraqlarının müdafiəsi istiqamətində müvafiq tədbirlər görülüb.

Bu dövrdə 8 KOB Dostu fəaliyyətə başlayıb ki, bununla da ölkə üzrə KOB dostlarının sayı 18-ə çatdırılıb. KOBİA-nın dəstəyi ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaradılmış arıçılıq təsərrüfatlarında istehsal edilən məhsulların emalı və qablaşdırılması üçün mobil emalatxana, Abşeron rayonunda kombi istehsalı zavodu fəaliyyətə başlayıb, Şəmkirdə istixana təsərrüfatının fəaliyyətinin genişləndirilməsinə dəstək göstərilib. Sahibkarlara bütün dövlət-biznes ("G2B") və biznes-biznes ("B2B") xidmətlərin vahid məkanda göstərilməsi məqsədilə hazırda Bakı şəhərində yaradılmaqda olan ilk kiçik və orta biznes evinin (KOB evi) təşkili və "e-KOB evi" portalının yaradılması istiqamətində tədbirlər davam etdirilir.

### Gələn il qeyri-neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 4,8 faiz artacaq

İqtisadi və sosial inkişaf konsepsiyasının hazırlanması prosesi barədə danışan Şahin Mustafayev proqnozların mütəmadi olaraq ölkə iqtisadiyyatının mövcud inkişaf səviyyəsi, qlobal meyillər və çağırışlar nəzərə alınmaqla yeniləndiyini qeyd edib. Bu sahədə işlərin təkmilləşdirilməsi, baş verən iqtisadi proseslərə daha çevik və adekvat yanaşmanın təmin olunması məqsədilə nazirlikdə aparılan institusional tədbirlərin genişləndirilməsi qərara alınıb.

Nazir vurğulayıb ki, görülən işlər, möhkəm iqtisadi təməl qarşıdakı 2020-ci ildə inkişafın davamlılığına əsas yaradır. Belə ki, ÜDM-in real artımının 3 faiz, o cümlədən neft sektoru üzrə 1,6 faiz, qeyri-neft sahəsində isə 3,8 faiz təşkil edəcəyi proqnozlaşdırılır. Gələn il qeyri-neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 4,8 faiz artacaq. Proqnozlara görə, 2020-ci ildə ÜDM-də qeyri-neft sektorunun payı 65 faizi ötəcək.

2020-ci ildə əsas kapitala investisiya qoyuluşunun 18,3 milyard manat təşkil edəcəyi gözlənilir. Bunun 12,2 milyard manatı daxili, 6,1 milyard manatının isə xarici investisiyaların payına düşəcəyi proqnozlaşdırılır.

Qeyri-neft investisiyalarına əsaslanan artımın əldə edilməsi üçün iqtisadi fəaliyyət subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, maliyyə dərinliyinin Strateji Yol Xəritəsində müəyyən olunmuş 60 faizə çatdırılması qarşıya qoyulmuş əsas vəzifələrdəndir. Buna nail olmaq vacibdir.

Şahin Mustafayev iqtisadi müşavirədə dövlət başçısının çıxışından irəli gələn və İqtisadiyyat Nazirliyi qarşısında qoyulmuş vəzifələrin vaxtında və yüksək səviyyədə icrası üçün nazirliyin struktur bölmələrinə konkret tapşırıqlar verib, müşavirədə verilmiş proqram xarakterli hər bir tapşırıq üzrə ayrıca əhatəli Tədbirlər Planının hazırlanması qərara alınıb.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Səmimiliyini itirən jurnalistika

Əvvəli 1-ci səh.

❖ ❖ ❖

*Milli mətbuatımız yarandığı gündən obyektiv, təmiz, qərəzsiz və təmənnasız olub!*

*İnsan şəxsiyyətinə və ləyaqətinə hörmətlə yanaşmağa çalışıb və buna nail olub!*

*Heç zaman tənqiddən təhqirə keçməyib!*

"Molla Nəsrəddin" satira hədəfi kimi sadə, avam və savadsız kəndlini yox, mövhumatı, rüşvətxor məmuru, quduran bəy-xanı seçib!

"Fəhlə, sən də özünü bir insanmı sanırsan?!"

Yaxud,

"Öyrəşməmisən ət-yağa dünyada əkinçi!

Heyvan kimi ömr eyləmisən sadə, əkinçi!"

yazan M.Ə.Sabirin hədəfi fəhlə və ya əkinçi deyil, ona həqarətlə baxan ağa, bəy idi!

**Çünki özləri də əsl ziyalı, mükəmməl qələm sahibi, başqalarına hörmətlə yanaşmağı bacaran jurnalistlər idilər!**

❖ ❖ ❖

*Jurnalist peşəkarlığının vacib elementlərindən biri jurnalist səmimiyyətidir!*

*Müsahibinin qələm əhlinə inanması, ürək qızdırması üçün bu, çox mühüm şərtdir!*

Məhz bu halda jurnalist ilə müsahibi arasında qarşılıqlı inam və etibar yaranır, sualları çəkinmədən, ehtiyat etmədən dolğunluğu ilə cavablandırır.

**Müsahib bilir ki, onun "yozula bilən", ikimənalı cavabları da pis yerə yozulmayacaq, geriyə, özünə qarşı yönləndirilməyəcəkdir!**

Müasir jurnalistikada təəssüf ki, digər janrların "unudulduğu", yalnız informasiya və müsahibənin aparıcı mövqeyə çıxdığı bir vaxtda bu, xüsusilə vacibdir.

**Jurnalist səmimiyyətinin itirilməsinin başlıca səbəbi "sensasiya xəstəliyi"dir!**

Bir çox saytlar və qəzetlər oxucu diqqəti çəkmək, yazılarını "maraqlı etmək" üçün ona sensasiyalı sərlövhələr qoymağa, materialın içinə əslində mətləbə və mövzuya dəxli olmayan "qeyri-adi", "indiyədək bəlli olmayan" "faktlar" salmağa can atırlar.

*Odur ki, müsahibə zamanı müxbirlər ciddi-cəhdlə müsahibinin dilindən nəsə qoparmağa, hansısa "ifadəni" almağa çalışırlar.*

*Hətta bunu məqsədə çevirirlər, necə deyərlər, qoparmayınca əl çəkmirlər!*

Nəticədə yazı jurnalist səmimiyyətinə inanan müsahibin "dilindən qaçırdığı", həyatı üçün xarakterik olmayan, bəzən təsadüfi, ötəri bir məqamı barədə söylədiyinin əndirəbadi formada təqdimi ilə yekunlaşır.

Üstəlik, hadisələr içində bəlkə də ən axırıncı yerdə dayanan həmin fikir sərlövhəyə daşınır.

**Bəzi jurnalistlər bunu özləri üçün "uğur" saysalar da, əslində peşənin prinsiplərinin ciddi şəkildə pozulmasıdır!**

*İnsan həyatından "sensasiya" düzəltmək yaramaz!*

*Sənə inanaraq açıq söhbət edənin sözgəlişi söylədiyinin başına ip salaraq hallandırmaq yolverilməzdir!*

Təəssüf ki, bunlar artıq müasir jurnalistikanın adiliyə çevrilmiş gerçəkliyidir!

Və fəaliyyət tərzidir!

❖ ❖ ❖

Səmimiyyətini itirən jurnalistika artıq digər vacib keyfiyyətlərindən də aralı düşür! Məsələn, mərhəmət və xeyirxahlığı arxa plana keçməkdədir.

Biz yalnız hansısa ciddi xəstəliyə düçar olmuş insanın, xüsusən də tanınmış sənət adamının müalicəsi üçün pul toplamaq kampaniyası keçirilərkən (əsasən də telekanallarda) bunun şahidi oluruq. Halbuki sovet dövründə mətbuat və televiziya daima ölkə vətəndaşının yanında olurdu, onun qayğı və problemlərinin (hətta məişət və digər sahələrlə bağlı) həllində köməkçisinə çevrilirdi.

**Bu gün isə mərhəmət və xeyirxahlığın yerini aqressiyanın tutmasının şahidləriyik...**

Nəyi nəzərdə tuturuq.

Müasir jurnalistika kriminal xəbərlərə, baş vermiş ağır, qəddarlıqla törədilmiş cinayətlərin işıqlandırılmasında daha həvəsli görünür.

Yəqin ki, bunun bir səbəbi DİN-in ölkədə baş verən hər bir cinayət hadisəsini dərhal öz saytında yerləşdirməsi və bu səbəbdən həmin informasiyaların hamı üçün əlçatan olmasıdır.

Lakin kriminal mövzuda yazarkən faktlara yanaşma qaneedici deyil!

*Əvvəla, kriminal xəbərləri bütün sayt və telekanalların hamısı birnəfəsə verdiyindən "cinayət bolluğu" təsəvvürü yaranır.*

*Digər tərəfdən, faktlara yanaşmada sensasiya, şişirtmə elementləri üstünlük təşkil edir.*

*Halbuki təəssüf, mərhəmət, qınaq və çəkindirmə məqamlarına üstünlük verilməsi daha vacibdir!*

**Mətbuatın "obyektiv münsif" əvəzinə "qızışdırıcı mövqe" tutması da diqqətçəkən və ciddi narahatlıq yaradan məqamlardandır.**

Söhbət söylənən fikirlərə münasibət bildirilməsindən gedir.

Tutaq ki, tanınmış simalardan biri hansısa məsələ ilə bağlı mətbuata açıqlama verir. Dərhal başqa bir qəzet və ya sayt bu açıqlamadakı bəzi məqamlarla bağlı başqa birinə "mövqe" bildirməyi xahiş, bəzən isə tələb edir.

Və başlayır ordan-burdan "qazımağa", qurdalamağa, müsahibinin dilindən "ilişkənli" nəsə qoparmağa!

Elə ki əllərinə bir şey keçir, sevinir, yenidən ilk açıqlama verənlə əlaqə saxlayaraq "filankəs sənin fikirlərinlə bağlı bunları dedi, cavabın nədir?" söyləməklə iki nəfər arasında ziddiyyət yaratmağa çalışırlar.

Vay o gündən ki, müsahib təcrübəsiz ola və daha sərt mövqe sərgiləyə...

Müxbirin çiçəyi çırtlayır, deməli, istədiyi "sensasiya" alınıb...

**Ancaq bu nə jurnalistikadır, nə də jurnalist - vətəndaş münasibəti!**

**Bu, jurnalistikanın nə təməl prinsiplərinə, nə mətbuatın ənənələrinə, nə də ki medianın müasir beynəlxalq standartlarına uyğundur!**

**İnsanları ziddiyyətə, qarşıdurmaya sövq etmək heç zaman KİV-ə hörmət və başucalığı gətirməz!**

**Jurnalist öz fəaliyyəti ilə barış yaratmağa çalışmalıdır!**

*Süni "sensasiya"nın isə ömrü uzun olmur!*

*Belə "sensasiyada" qazananlar çox keçmədən oxucu sayında itirirlər.*

❖ ❖ ❖

Yaxud başqa bir məqam.

Adətən müxbir öz suallarını rahat şəraitdə müəyyənləşdirir və hazırlayır. Sonra mobil telefonla əlaqə yaradaraq kimdənsə cavab almağa çalışır.

Telefonla danışdığı insan haradadır, hansı şəraitdədir, əhvali-ruhiyyəsi necədir, fikrini dərhal həmin sual ətrafında toplaya biləcəkmi - bütün bunlar müxbirin vecinə deyil, heç bu barədə düşünmür də!

Ona materialı tez, həm də "sensasiya" formasında hazırlamaq gərəkdir!

Sualları yağdırır...

*Darmacalda suala cavab verənin bəzən fikrini dəqiq ifadə etməməsi başadüşüləndir!*

*Lakin bu, bir paraları üçün göydəndüşmə olur!*

**Fikrin, cümlənin, hətta bəzən sözün başına ip salaraq belədən-belə dolandırır, belədən-belə fırladır!**

Digər saytlar da dərhal onlarla səs-səsə verirlər.

Vay o gündən ki, həmin şəxs mətbuatın daim qaraladığı insanlardan olsun!

Bir vur-çatlasın düşür ki, gəl görəsən!

*Amma bu, nə jurnalistikadır, nə də sənə inanan, səninlə əməkdaşlıq edənə göstərilən insani münasibət!*

Sonra da deyirlər ki, filankəslər mətbuatdan yayınırlar, telefonlarını qapadırlar, KİV-lə əməkdaşlıq etmirlər...

Kim qərəzli müxbirlə, xəbər yox, sensasiya ardınca qaçan KİV-lə dostluq edər ki...

**Əsl jurnalist insanları dürüstlüyü, xoş niyyəti, səmimiliyi ilə dost-əməkdaşa çevirə biləndir!**

**Çünki səmimiyyətin özəyində bir inam və etibar dayanır!**

❖ ❖ ❖

Sosial şəbəkə "prinsip"lərinin (bəlkə də prinsipsizliyinin) mətbuata daşınması obyektivliyə və səmimiyyətə vurulan zərbədir!

*Sosial şəbəkədə müxtəlif yaşlı, xarakterli, səviyyəli, dünyagörüşlü insanlar bir-birlərilə istədikləri formada və ifadələrlə danışa, yazışa bilərlər.*

*Bu azad söz "meydanında" nə məhdudiyyət var, nə senzura, nə də qayda-qanun!*

Necə deyərlər, hərənin öz ədəbinə və qanacağına qalıb!

**Mətbuat isə hüquqla, qanunlarla tənzimlənən və jurnalistdən məsuliyyət tələb edən sahədir.**

*Burada çalışanlar fəaliyyətlərində nə qədər azad və sərbəst olsalar da, həmin qanunların tələblərinə, Azərbaycan Jurnalistinin Peşə Davranışı qaydalarına əməl etməyə borcludurlar!*

Sosial şəbəkə bəlkə də mətbuata nüfuz etmək istəyər (Əslində, edir də).

Hələlik onunla rəqabətdədir!

Amma bu sayaq nüfuzetmə mətbuata hörmət və başucalığı gətirərmi, yaxud gətirirmi?

Üstəlik belə "sərbəst" davranış zamanı məhkəmə məsuliyyətini, qanunun tələblərini də unutmaq olmaz!

❖ ❖ ❖

Həyat dəyişir, inkişaf edir, yenilənir...

Yeni texnologiyalar hər yana nüfuz edir, işimizi rahatlaşdırır və asanlaşdırır, operativliyi və sürəti artırır.

*İnformasiya bolluğu, informasiyanın yayım sürəti, miqyası görünməmiş həddə çatmışdır.*

*Bütün bunlar yaxşıdır, hamını qane edəndir!*

Şübhəsiz bu texniki proseslərin, eyni zamanda, sosial şəbəkədəki müzakirə və yeniliklərin mətbuata da təsiri inkarolunmazdır.

Bir tərəfdən İKT-nin, digər tərəfdən lazımi biliyi, peşə təcrübəsi olmayan insanların jurnalistikaya axını bu sahədə də müəyyən dəyişikliyə səbəb olur.

**Təəssüf ki, dəyişikliklərin hamısı müsbət yöndə getmir!**

**Xüsusən peşəkarlıq səviyyəsinin aşağı düşməsi, milli mətbuatımızın əsrlər boyu formalaşmış ənənələrindən uzaqlaşması xoşagələn və arzuedilən hal deyil!**

*Jurnalistikada səmimiyyətin itirilməsi də ən ağrılı itkilərdən sayılmalıdır!*

*Çünki bu, təkcə müxbir-vətəndaş münasibəti ilə məhdudlaşmır.*

*Mətbuatla cəmiyyət arasındakı əlaqələrin keyfiyyətinə də ciddi təsir göstərir.*

**Mətbuat əməkdaşlıq etdiyi insanların sayında və səmimiliyində itirir.**

**İnsanlar isə ürək qızdırılası, etibar ediləsi qələm sahiblərinin azalmasından pəjmürdə olurlar.**

Təəssüf ki, milli mətbuatın yaranmasından bugünümüzədək gəlib çıxan səmimi münasibətləri, jurnalistikamızın səmimiliyini qoruya bilmirik.

Deməli, həm də bir qism mənəvi dəyərlərdən gen düşürük...

Heç nə qazanmadığımız halda itirməyə dəyərmi?!.

**Bəxtiyar SADIQOV**

# İlham Əliyev dünyanı yenidən Bakıya toplayır

## Azərbaycan Qoşulmama Hərəkatının timsalında beynəlxalq miqyasda lider mövqeyə çıxır

Əvvəli 1-ci səh.

Qoşulmama Hərəkatına üzvlük Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinə daha çox dəstəyin əldə edilməsinə öz töhfəsini verib. Qoşulmama Hərəkatı çərçivəsində keçirilmiş bütün toplantıların yekun sənədlərində BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq bu münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında nizamlanmasının vacibliyi birmənalı və aydın şəkildə ifadə edilib.

### Uzaqgörən siyasətin məntiqi nəticəsi

Qoşulmama Hərəkatına üzv olduğu nisbətən qısa müddət ərzində Azərbaycan Respublikası özünün uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazanıb.

Buna görə 2016-cı ilin sentyabrında Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının XVII Zirvə Görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul edilib.

Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünə evsahibliyi üçün Azərbaycanın paytaxtının seçilməsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsidir. Bu siyasət Azərbaycan xalqının milli mənafeyinə, müxtəlif dinlər və mədəniyyətlər arasında dialoqa, dünyada sülh və sabitliyin bərqərar olunmasına töhfə verməklə dövlətlərarası qarşılıqlı hörmət və anlaşmanın, habelə əməkdaşlığın təşviq edilməsi üzərində qurulub.

XVIII Zirvə Görüşünə evsahibliyi Azərbaycan həqiqətlərinin, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqlarının dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasındakı üzvlüyündən irəli gələn üstünlüklərdən istifadə etməklə sədrlik dövründə üzv dövlətlərlə birlikdə Qoşulmama Hərəkatının beynəlxalq münasibətlərdə rolu və nüfuzunun artırılması, beynəlxalq sülh və təhlükəsizliyin qorunması və möhkəmlənməsi, habelə Hərəkatın beynəlxalq münasibətlərin müasir dövrdə üzləşdiyi qlobal çağırışların öhdəsindən gəlməsi üçün səylərini əsirgəməyəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, oktyabrın 22-də və 23-də Xocavənd və Ağdam rayonları istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət edilən Azərbaycan ərazisində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru aparacaqlar.

# 19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur

## Əli ƏHMƏDOV: "Əhalinin əmin-amanlığı pozmaq istəyənlərə öldürücü etinasızlıq göstərməsi xalqın ölkədəki sabitliyi yüksək qiymətləndirməsinin, Prezident İlham Əliyevə inamının, onun siyasətini müdafiə etməsinin, xalqla iqtidarın birliyinin əyani ifadəsidir"



"Oktyabr ayının 19-da Bakıda qeyri-qanuni küçə yürüşü keçirmək, asayişi pozmaq, qarşıdurma yaratmaq cəhdləri və sosial şəbəkələr üzərindən antikonstitusion çağırışlar destruktiv qrupların fəaliyyətinin açıq təxribatlar törətmək müstəvisinə keçməsindən xəbər verir. Küçə yürüşünün icazəsiz və adətən insanların gur olduğu yerlərdə keçirilməsi məqsədli şəkildə insanların rahatlığını pozmaq, onlarda narazılıq yaratmaq və bu zəmində ictimai sabitliyin üzərinə kölgə salmaq niyyəti güdür. Diqqəti çəkən həm də odur ki, bütün bu qanunsuz hərəkətlər Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda və Aşqabadda MDB dövlət və hökumət başçılarının növbəti toplantısında Qarabağ münaqişəsilə bağlı insanlarda böyük ruh yüksəkliyi yaratmış çıxışlarından, habelə cari ilin 9 ayının yekunlarına həsr edilmiş müşavirədə daxili siyasətlə əlaqədar səsləndirdiyi ədalətli və sərt bəyanatlarından az sonraya təsadüf edir. Yəqin ki, Azərbaycanın inkişafını gözü götürməyənlər, xalqın ruh yüksəkliyinin artmasından xofa düşən xarici dairələr və daxildəki destruktiv qruplar birbaşa təxribat törətmək qərarına gəliblər". Bu fikirləri Baş nazirin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov özünün rəsmi feysbuk səhifəsində paylaşmışdır.

Əli Əhmədov bildirib ki, razılaşdırılmamış, deməli, icazəsiz küçə yürüşləri, vətəndaş itaətsizliyinə çağırışlar aksiyaların təşkilatçısı olan Azərbaycan Xalq Cəbhəsi Partiyasının qanun müstəvisindən məqsədyönlü şəkildə kənara çıxdığını sübuta yetirir. YAP sədrinin müavini Əli Əhmədov daha sonra qeyd edib: "Azərbaycanda maraqlı dairələrin sifarişi ilə sabitliyi pozmaq, xaos yaratmaq niyyəti aydın görünür. Destruktivlərə və onların açıq və gizli havadarlarına çirkin niyyətlərini həyata keçirməyə, ölkənin 1990-cı illərin əvvəllərində yaşadığımız müsibətləri yenidən yaşamasına imkan verilə bilməz və verilməməlidir.

Dövlət və onun müvafiq orqanları ölkədəki sabitliyi qorumağa qadirdir və ötən gün onu bir daha əyani şəkildə nümayiş etdirdi. İnanıram ki, törədilən təxribatlara və antikonstitusion çağırışlara lazımi hüquqi qiymət veriləcək. Eyni zamanda, onu da aydın şəkildə müşahidə etdik ki, xalq destruktivləri və onların yerinə yetirmək istədikləri çirkin sifarişləri qətiyyətlə pisləyir. İnsanlarımız ölkəmizdəki inkişafı və rahat həyatı yüksək qiymətləndirir. İndi hamının Prezident İlham Əliyevin ətrafında əvvəlkindən daha sıx birləşməsi zamanıdır. Təxribata və təxribatçılara ən tutarlı cavab bu ola bilər. Bütün vətəndaşları qətiyyətli olmağa, dövlətimizin və rahat həyatımızın keşiyində möhkəm dayanmağa səsləyirəm.

Gəlin birlikdə Azərbaycanı qoruyaq!"

❖❖❖

"Sosial şəbəkədə müxalifətin mitinq adlandırdığı başıpozuq hərəkətləri izləyirəm. Həqiqətən üzücü mənzərədir: çox az sayda insan şəhərin gur yerində asayişi pozmaqla diqqəti cəlb etməyə çalışır. Sanki onlar insanların rahatlığını pozmaqlarından həzz alırlar. Əslində isə utanmaq lazımdır. Müşahidə etdiklərim deməyə əsas verir ki, küçələrdə səs-küy salan bu insanlar Azərbaycanın reallıqlarından və xalqdan çox uzaq düşüblər. Sanki başqa ölkənin vətəndaşları, yadplanetlilərdir. İstər-istəməz yada 30 il əvvəlki dövrün qaragüruhu düşür. Heç dəyişməyiblər, dəyişmək də istəmirlər. Ona görə də Azərbaycanın bugünündən çox geridə qalıblar. Yaxşı ki, onlar azdır, özü də lap az.

Polisin davranışı təqdirəlayiqdir. Qanunsuz, icazəsiz aksiyaların qarşısı alınmalıdır. İnsanların rahatlığını kimsə pozmamalıdır və poza bilməz".

❖❖❖

Müxalifətin radikal qanadının oktyabr ayının 19-da Bakıda icazəsiz kütləvi aksiya keçirmək niyyəti və cəhdləri haqlı olaraq bəzi suallar doğurur ki, onları cavablandırmağa ehtiyac olduğunu düşünürəm. Əvvəla, ondan başlamaq istəyirəm ki, bir neçə ay bundan öncə Azərbaycanın siyasi proseslərinə xarici təsirlərin təhlükələri ilə bağlı həyəcan təbili çalır, cəmiyyətin bu təhlükələrə qarşı müqavimət göstərməsinin vacibliyini vurğulayırdıq. Müxalifət də daxil olmaqla bir sıra partiyalar və vətəndaş cəmiyyəti təşkilatlarının ölkənin siyasi həyatına xarici təsirlərin yolverilməzliyinə dair birgə mövqe nümayiş etdirməsi, bəyanat imzalaması sözügedən təhlükənin nəinki mövcudluğuna, hətta kifayət qədər ciddi olduğuna işarə idi. Oktyabr ayının 19-da təşkil olunan qanunsuz aksiya cəhdi bəzi siyasi partiyaların vasitəçiliyi ilə ölkənin daxili işlərinə xarici müdaxilə niyyətlərinin real təhlükəli həddə çatmasından xəbər verir. Mətbuatda yayılan məlumatlar mitinqçilərin planlarının və hərəkətlərinin bəzi xarici dairələrin nümayəndələri ilə razılaşdırıldığına hər hansı şübhə yeri qoymur. Deyilənlərə mitinqdən sonra haqqında söhbət gedən ünvanlara kütləvi aksiya cəhdi ilə əlaqədar hesabat verildiyini də əlavə etsək, mənzərə tam aydın olar. Görünən odur ki, 19 oktyabr mitinqinin Azərbaycanın və onun vətəndaşlarının maraqları ilə heç bir əlaqəsi yoxdur, ictimai zərurət yükünə malik deyil və bu səbəbdən də insanların diqqətini cəlb edə bilməyib. Belə olan halda razılaşdırılmamış mitinqin keçirilməsinin əsl səbəbinin bəzi xarici dairələrin maraqlarından qaynaqlandığına inanmamaq mümkün deyil. Bunun başqa adı Azərbaycanın dövlətçilik və milli mənafelərinin maraqlı xarici dairələrə qurban verilməsi, sadə dildə desək, satılmasıdır. Dərk etmək nə qədər üzücü olsa da Azərbaycan Xalq Cəbhəsi Partiyası və onun ətrafında toplaşanlar bəzi xarici dairələrin əlində Azərbaycana qarşı istifadə olunan təhlükəli vasitəyə çevrilib. Hesab edirəm ki, cəmiyyətimiz buna biganə qalmamalı, dövlətin müvafiq orqanları xarici maraqlara xidmət göstərən siyasi təşkilatın fəaliyyətinə qanunauyğun hüquqi qiymət verməlidir.

Cavabını gözləyən digər sual razılaşdırılmamış, yəni qanunsuz mitinqin keçirilməsinə cəhd göstərilməsi ilə əlaqədardır. Azərbaycanda bütün hüquq və azadlıqlar kimi, sərbəst toplaşmaq hüququ da təmin edilib. Hər hansı qanuni kütləvi aksiyanın keçirilməsinə məhdudiyyət və ya qadağa yoxdur. Lakin bütün dünyada, hətta ən demokratik ölkələrdə olduğu kimi, Azərbaycanda da kütləvi aksiyalar zamanı ictimai asayişin qorunmasına, vətəndaşların təhlükəsizliyinin təmin olunmasına görə məsuliyyəti hökumət daşıyır. Elə buna görə də istənilən kütləvi aksiya əvvəlcədən razılaşdırılır, onun keçirilməsi üçün yer ayrılır. Əks halda asayişin qorunması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi mümkün olmazdı. Aksiya iştirakşılarının özlərinin təhlükəsizliyinin təmin edilməsi də bu qəbildən olan zərurətdir və onun məsuliyyəti də hüquq mühafizə orqanlarının üzərinə düşür. Eyni zamanda, mitinqdə iştirak etməyən insanların rahatlığının pozulmaması amili də mütləq nəzərə alınmalıdır. Sadalanan həqiqətlərin mitinqin təşkilatçılarının bilmədiyini düşünmək sadəlövhlük olardı. Bəs onda niyə radikal müxalifət razılaşdırılmamış aksiya keçirilməsinə çalışır. Nə qədər təəccüblü görünsə də, səbəb çox sadədir: təxribat salmaq, qarşıdurma yaratmaq. Mitinqin təşkilatçıları bilir ki, icazəsiz aksiyanın qarşısı alınmalıdır və alınacaq. Bax onlara da məhz elə bu lazımdır: sifarişçilərə və mitinqi təşkil edənlərə lazım olan gərginliyin, qarşıdurmanın yaradılması. Əgər daha ciddi təxribat etmək mümkün olarsa, lap yaxşı, müxalifət də elə bunu istəyir. Qalanını müxalifətin havadarları özləri edəcək: çəkilən şəkillər, videogörüntülər lazımi yerlərə ötürüləcək, Azərbaycanda insan haqları pozulur deyə haray-həşir qopacaq, hansısa beynəlxalq təşkilatlar, həmişə olduğu kimi, ölkəmizə və hakimiyyətə qarşı ikili standartlara əsaslanan bəyanat qəbul edəcək və s.

Cavabını gözləyən daha bir sual mitinqin şəhərin ən gur, hərəkətin ən intensiv olan yerində keçirilməsindən ibarətdir. Bunun bir səbəbi təşkilatçıların mitinqə aid olmayan insanlar hesabına kütləvilik effekti yaratmaq istəyindən qaynaqlanır. Əslində bu, özünüaldatmaqdan başqa heç nəyə yaramır, zira radikal müxalifətin ictimai bazasının olmadığını Azərbaycanda bilməyən yoxdur. Gəlin bunu buraxaq mitinq təşkilatçılarının öz vicdanına (əgər varsa). Ancaq icazəsiz mitinqin keçirilməsi üçün yerin seçilməsində digər amil də var. İnsanlar gur olan yerlərdə onların rahatlığını pozmaq, qıcıq yaratmaq, mümkün olsa, asayiş qoruyucuları ilə əhali arasında qarşıdurma yaratmaq və s. daha asandır. Göründüyü kimi, pis ola biləcək nə varsa, hamısını etməyə çalışıblar ki, məkrli niyyətlərinə çatsınlar.

Təxribat bu dəfə də baş tutmadı. Xalqın radikalçıları qəbul etməməsi bir daha təsdiqini tapdı. Əhalinin ölkədəki əmin-amanlığı pozmaq istəyənlərə öldürücü etinasızlıq göstərməsi xalqın ölkədəki sabitliyi yüksək qiymətləndirməsinin, Prezident İlham Əliyevə inamının, onun siyasətini müdafiə etməsinin, xalqla iqtidarın birliyinin əyani ifadəsidir. İnanıram ki, bundan sonra da xalqımız bütün təxribatlara və təxribatçılara layiqli cavab verəcək, Azərbaycanın dövlət və milli maraqlarının keşiyində sayıq dayanacaq.

# Milli maraqlara qənim kəsilənlər

## Azərbaycanın uğurlarına kölgə salmaq istəyən xarici qüvvələrin və onların daxildəki "buyruq qulları"nın çirkin niyyətləri iflasa məhkumdur









Oktyabr ayının 19-da bəzi destruktiv qruplar köhnə "ənənələrinə" sadiq qalaraq insanların rahatlığını pozmaqla razılaşdırılmamış küçə yürüşü keçirməyə, kütləvi iğtişaşlar törətməyə, asayişi kobud şəkildə pozmağa cəhd etdilər. Lakin hüquq mühafizə orqanları tərəfindən qanunsuz yürüşün qarşısı alındı. Ancaq mitinqdən sonra antiazərbaycançı şəbəkənin daxildəki "buyruq qulları" və xaricdə yaşayan bəzi şəxslər aldıqları xüsisi sifarişlər əsasında sosial şəbəkələrdə həqiqətə uyğun olmayan məlumatlar yaymağa başladılar. Bu xoşagəlməz hallar isə ölkə ictimaiyyətinin ciddi narazılığına səbəb oldu.

Yaranmış vəziyyəti təhlil edən siyasətçilərin də arzuolunmaz vəziyyətlə bağlı fikirləri birmənalıdır. Milli Məclisin komitə sədrləri, deputatları hesab edirlər ki, bütün bunlar antiazərbaycançı şəbəkənin ölkəmizin son vaxtlarda əldə etdiyi uğurları həzm edə bilməməsi və nailiyyətlərə kölgə salmaq məkirindən qaynaqlanır.

### Polis sivil qaydalara uyğun davranış nümayiş etdirdi

**Əli HÜSEYNLİ,**
*Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri:*

- Bir qrup ifrat radikal müxalifətin oktyabrın 19-da mitinq adı ilə toplaşdıqları yer seçiminin özü belə onların sırf hüquqazidd əməllərindən xəbər verir. Baxmayaraq ki, Baki Şəhər İcra Hakimiyyəti onlara müraciətlərinə əsasən daha əlverişli yer təklif etmişdi.

Xatırlatmaq istəyirəm ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinin 3-cü hissəsinin 2-ci bəndinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağandır. Ona görə də şəhər icra hakimiyyəti tərəfindən mitinqin qeyd olunan vaxtda Bakı şəhəri, Lökbatan qəsəbəsi, 28 May küçəsindəki "Neftçi" idman klubunun Qaradağ təlim idman bazasında keçirilməsi təklif olunmuşdu. Buna baxmayaraq, radikal müxalifət şəhərin mərkəzi hissəsində qanunsuz aksiyanın keçirilməsinə cəhd göstərdi və ictimai asayişi ciddi şəkildə pozmağa çalışdı.

Hüquq mühafizə orqanları öz peşə vəzifə və borclarını layiqincə yerinə yetirərək qanunsuz aksiyanın qarşısını aldı. Bundan bir neçə gün əvvəl də İqtisad Universitetinin qarşısında qanunsuz aksiya cəhdlərindən görüntüləri də xatırladaraq deyərdim ki, polis olduqca sivil qaydalara uyğun davranış nümayiş etdirib.

Bu gün çox aydın şəkildə biz Fransada, İspaniyada polisin vətəndaşlara qarşı amansızlıqlarını müşahidə edirik. Dinc nümayişçilərə qarşı polis tərəfindən rezin güllələrdən istifadə olunması, jurnalistlərin döyülməsi, həddindən artıq aqressiya və sairə bu gün Avropa İttifaqı ölkələrində tez-tez rast gəlinir.

Azərbaycandakı inkişaf, xüsusilə ictimai-siyasi sabitlik bir sıra dairələrin maraqları ilə üst-üstə düşmür və bu kimi cəhdlər də məhz onların sifarişidir.

### Antiazərbaycançı şəbəkənin növbəti avantürası da iflasa uğradı

**Nəsib MƏHƏMƏLİYEV,**
*Milli Məclisin deputatı:*

- Azərbaycan müstəqilliyinin 28-ci ildönümünü möhtəşəm nailiyyətlər, sosial-iqtisadi yüksəliş, mühüm beynəlxalq siyasi nailiyyətlərlə qeyd edir. Çox sevindirici haldır ki, bu ildönümü həm də qazandığımız uğurların qlobal miqyasda təsdiqi və təsbiti ilə əlamətdar oldu. Beynəlxalq iqtisadi təşkilatların son hesabatlarında yer alan məlumatlar bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar düzgün istiqamətdədir və qazanılan iqtisadi nailiyyətlərimiz dünyada təqdir olunur.

Eyni zamanda Azərbaycan bu həftə Qoşulmama Hərəkatına sədrliyi rəsmən öz üzərinə götürəcək. "Valday" Beynəlxalq Diskussiya Klubunun plenar sessiyasında və Aşqabadda dövlət başçılarının Zirvə görüşündə Ermənistana vurulan siyasi-diplomatik zərbənin ardınca Azərbaycan BMT-dən sonra dünyanın ikinci ən böyük təşkilatına sədrlik edəcək. Beləliklə, İlham Əliyev növbəti dəfə beynəlxalq miqyasda lider mövqeyinə çıxır.

Bütün bu nailiyyətlər xalqımızı sevindirir, qürurlandırır. Yeganə sevinməyən isə antiazərbaycançı dairələrdir. Ona görə respublikamızda uğurla həyata keçirilən islahatların, mühüm siyasi uğurların fonunda son vaxtlar antiazərbaycançı mərkəzlərin də fəaliyyətində fəallaşma hiss olunur. Əlbəttə, onların fəallığının güclü Azərbaycan dövlətinin qarşısında zərrə qədər də təsiri olmasa da, görünən odur ki, respublikamızın inkişafı, uğurları, insanların sosial rifahının yüksəlməsi qısqanclıqla qarşılanır. İndiyədək bu istiqamətdə baş verən proseslər göstərir ki, antiazərbaycançı dairələrin Azərbaycan dövlətinə və Prezident İlham Əliyevə qarşı apardıqları qarayaxma kampaniyaları, cəmiyyətdə qarşıdurma yaratmaq, sabitliyi pozmaq cəhdləri həmişə iflasa düçar olub. Bu gün beynəlxalq miqyasda onların həyata keçirmək istədikləri, məkrli planlar yox, Azərbaycan Prezidentinin apardığı islahatlar və "Qarabağ Azərbaycandır!" çağırışı daha ucadan səslənir.

Belə bir məqamda antiazərbaycançı şəbəkə Azərbaycanda daxili vəziyyəti, ictimai-siyasi sabitliyi gərginləşdirmək üçün yenidən təxribatlar törətməyə, iğtişaşlar yaratmağa cəhd edir. Oktyabrın 19-da müxalifətin Milli Şura adlandırılan qurumunun Bakının mərkəzində icazəsiz mitinq keçirməyə cəhd etməsini başqa cür qiymətləndirmək mümkün deyil. Çünki küçə yürüşünün icazəsiz və adətən insanların gur olduğu yerlərdə keçirilməsi məqsədli şəkildə insanların rahatlığını pozmaq, onlarda narazılıq yaratmaq və bu zəmində ictimai sabitliyin üzərinə kölgə salmaq niyyəti güdür.

Görünən odur ki, radikal ovqatlı antimilli qüvvələr antiazərbaycançı şəbəkədən növbəti sifariş alıblar. Onlarda narahatlıq yaradan isə inkişaf edən və yüksələn Azərbaycandır. Çünki İlham Əliyevin rəhbərliyi ilə qazanılan hər bir uğur onların antimilli müstəvidə qurulmuş fəaliyyətlərini alt-üst edir, insanlara yalan sırımaq cəhdlərinin qarşısını alır.

Müxalifətin əvvəlcədən hazırlanmış iğtişaş planları bu dəfə də uğursuzluğa düçar oldu. Azərbaycan polisi yüksək peşəkarlıqla, bir çox xarici ölkələrdə mitinqlərin dağıdılması zamanı tətbiq olunan vasitələrdən istifadə etməməklə öyrədilmiş bir qrup insanın şəhərin mərkəzində sabitliyi pozmaq cəhdinin və daha dəqiq ifadə etsək, iğtişaş yaratmaq planının qarşısını qətiyyətlə aldı. Biz həmin günlərdə televiziyada İspaniyanın Kataloniya əyalətində və Honqkonqda mitinqlərin necə dağıdıldığını izləyirdik. Amma Azərbaycan polisi atlardan, itlərdən, su şırnaqlarından, gözyaşardıcı qazlardan istifadə etməməklə öz peşə borcunu layiqincə, nümunə göstərməklə yerinə yetirdi.

Müxalifətçilik heç bir halda dövlətə və xalqa qarşı yönəlməməlidir. Azərbaycanın siyasi tarixində hələ 1990-cı illərin əvvəllərində Yeni Azərbaycan Partiyasının müxalifət partiyası kimi ortaya qoyduğu böyük təcrübə var. Müxalifət dövlətin milli maraq və mənafelərini hər şeydən üstün tutmalı, öz proqramları ilə hakimiyyətin fəaliyyətinin canlanmasına, alternativ düşüncələri ilə ölkə qarşısında duran vəzifələrin daha sürətlə gerçəkləşməsinə xidmət etməlidir. Təəssüf ki, Əli Kərimlinin rəhbərlik etdiyi AXCP-nin və Milli Şuranın timsalında bunun tamamilə əksi müşahidə olunur. Əslində müxalifətçiliyi antimilli platformaya çevirmiş belələrindən başqa nəsə gözləmək də sadəlövhlük olardı. AXC qaragüruhunun birillik iqtidarı başa çatdıqdan sonra Ə.Kərimli daim öz fəaliyyətini antiazərbaycançı dairələrlə əlaqələndirib. Bu mənada əslində onun fəaliyyəti sağlam müxalifətçilik prinsipləri ilə tamamilə ziddiyyət təşkil edir. O, təmsil olunduğu qurumun daxilində öz rəhbərinə belə xəyanət edib. Həm buna, həm dövlətin milli maraqlarını satdığına, müxalifətçiliklə bir araya sığmayan hərəkətlərinə görə ətrafındakılar ondan üz döndəriblər. Ə.Kərimlinin antiazərbaycançı dairələrlə əməkdaşlığı, onlardan sifarişlər aldığı zaman-zaman təkzibolunmaz faktlarla ifşa olunub. Onun yenidən mitinq həvəsinə düşməsinin səbəbi də aldığı yeni sifarişdir.

Azərbaycanın Dövlət Müstəqilliyi Günü oktyabrın 18-də idi. Müxalifətin icazəsiz mitinqi məhz bu tarixdən bir gün sonra keçirmək istəməsində də bir məqamı var. Məlum olduğu kimi, 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsindən dərhal sonra AXC-Müsavat qruplaşmasının hakimiyyət uğrunda mübarizəsi xalqa və dövlətçiliyə ciddi zərbə vurdu. Yeni qazanılmış müstəqillik itirilmək təhlükəsi ilə üzləşdi. Hərbi çevriliş yolu ilə hakimiyyətə gələn bu qüvvələr cəmi birillik iqtidarları ilə Azərbaycana ən böyük tarixi yaraları vurdular. Təəssüf ki, vaxtilə müstəqilliyimizi itirmək təhlükəsi qarşısında qoyan həmin qüvvələr bu gün yenidən köhnə ssenariləri işə salmaq istəyirlər. Lakin onların hədəfi əslində iqtidara gəlmək deyil. Əsl hədəfləri Azərbaycanın müstəqilliyini və dövlətçiliyini məhv etməkdir. Onlar bu niyyətləri, antiazərbaycançı şəbəkənin maraqlarına xidmətlərini ortaya qoymaqla bu xalqa aid olmadıqlarını göstərdilər.

Azərbaycan xalqı Heydər Əliyev siyasi kursunun və İlham Əliyevin islahatlar strategiyasının ətrafında sıx birləşib. Xalqımız hələ 26 il öncə xaosa və anarxiyaya, AXC və Müsavata yox deyib, indi də bu mövqeyə sahibdir. Ona görə onlara Azərbaycan siyasi səhnəsində heç vaxt yer olmayacaq.

### Kimlərinsə özünü qanunlardan üstün tutmasına imkan verilməyəcək

**Tahir RZAYEV,**
*Milli Məclisin deputatı:*

- Hər bir aksiya - mitinq, yürüş müəyyən qanunvericilik çərçivəsində olmalıdır. Qanundankənar heç bir kütləvi aksiya keçirilməməli və buna yol verilməməlidir. Azərbaycan hüquqi, demokratik ölkədir və burada hər bir proses qanunlarla tənzimlənir. İndiyə kimi belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq. Kimlərinsə özünü qanundan yuxarı görməsinə, aparmasına imkan verilməyəcək.

Mən insanların kütləvi mitinqlərə, iğtişaşlara çağırılmasının tərəfdarı deyiləm. Hər şey qanunvericilik çərçivəsində olmalıdır. Hansısa qüvvələr mitinq, kütləvi aksiya keçirəndə isə icazə almalıdırlar. Əks halda yaşanan qarşıdurmalardan hansısa tərəfin ziyan çəkməsi, dağıntıların olması dövlətin də imicinə ziyandır.

Dağıdıcı müxalifətin mitinq cəhdi də bu baxımdan qəbulolunmaz idi. Bu cür qanunsuz hərəkətlər, yaşanan xoşagəlməz anlar heç bir halda Azərbaycan cəmiyyəti üçün faydalı deyil. Bunun məsuliyyəti isə insanları iğtişaşlara səsləyən müxalifət liderlərinin üzərinə düşür. Onlar bu məsələdə məsuliyyət daşıyırlar.

Azərbaycan ötən əsrin 80-ci illərinin sonlarının, 90-cı illərinin əvvəllərinin, xaosun, anarxiyanın, özbaşınalığın, hüquqi nihilizmin hökm sürdüyü ölkə deyil. Artıq o dövrlər çoxdan geridə qalıb. İndiki Azərbaycan qanunlarla idarə olunan güclü, qüdrətli, müasir, modern və model Azərbaycandır və onun qüdrətli, cəsarətli, müdrik lideri var.

Ümumiyyətlə, kimlərinsə ərköyünlüyünə, cığallığına, özünü qanunlardan üstün tutmasına imkan verilməyəcək. Bunu həmin qüvvələr nə qədər tez anlasalar, özləri üçün yaxşı olar.

### Düşmənin dəyirmanına su tökənlərdən hər bir azərbaycanlı uzaq olmalıdır

**Qənirə PAŞAYEVA,**
*Milli Məclisin deputatı:*

- İcazəsiz keçirilən küçə yürüşü, asayişi pozmaq, qarşıdurma yaratmaq cəhdləri və sosial şəbəkələr üzərindən antikonstitusion çağırışlar edilməsi kimi bəzi radikal müxalif qüvvələrin təxribat addımları Prezident İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunda, Aşqabadda MDB dövlət və hökumət başçılarının növbəti toplantısında Qarabağ münaqişəsilə bağlı verdiyi sərt bəyanatlardan, Türk Şurasının möhtəşəm zirvə toplantısında verdiyi önəmli mesajlarından, cari ilin 9 ayının yekunlarına həsr edilmiş müşavirədə səsləndirdiyi ədalətli və sərt bəyanatlarından az sonraya təsadüf etməsi əslində təsadüf kimi görünmür.

Azərbaycanın inkişafında maraqlı olmayan, ölkəmiz əleyhinə fəaliyyət göstərən bəzi xarici dairələr daha da fəallaşıb və onlar daxildəki bəzi radikal müxalifət tərəfdarları ilə vəziyyəti gərginləşdirməyə cəhd edirlər. Siyasi düşüncələrimizdən asılı olmayaraq, bu gün hamımız dövlətimizin, Ali Baş Komandanımızın ətrafında sıx birləşməliyik. Çünki biz torpaqlarımızı işğaldan azad etməliyik. Düşməninin dəyirmanına su tökən addımlardan hər bir azərbaycanlı uzaq olmalıdır. Mitinq, piket və yürüşü icazə verilən yerlərdə keçirə bilərdilər. Şəhər mərkəzində, əhalinin sıx olduğu yerlərdə qanunsuz küçə yürüşünə cəhdin arxasında dayanan marağı anlamaq çətin deyil. Təəssüf... Amma insanlarımızın əksəriyyəti bu gün cənab Prezidentin, Ali Baş Komandanın ətrafında sıx birləşərək ölkəmizin inkişafı üçün ona dəstəyini yüksək səslə ifadə edir və heç bir xarici qüvvə və onların daxildəki tərəfdarları bu kimi addımlarla nəyəsə nail ola bilməzlər. Allah Azərbaycanımızı qorusun hər zaman!

***"Azərbaycan"***

## Mətbuat Şurası icazəsiz aksiya zamanı jurnalistlərin peşə fəaliyyəti ilə bağlı monitorinq aparıb

Azərbaycan Mətbuat Şurası müxalifət nümayəndələrindən ibarət bir qrupun oktyabrın 19-da metronun "28 May" stansiyası yaxınlığında keçirdiyi icazəsiz aksiyada jurnalistlərin peşə vəzifələrini yerinə yetirmələrinin monitorinqini aparıb.

Mətbuat Şurasından AZƏRTAC-a daxil olan məlumata görə, şuranın və Daxili İşlər Nazirliyinin nümayəndələrindən ibarət birgə monitorinq qrupunun üzvləri həmin ərazidə olublar. Eyni zamanda, jurnalistlər monitorinq qrupu üzvləri ilə telefon əlaqəsi yaratmaq imkanına malik olublar. Ümumən jurnalistlərin aksiyanı işıqlandırmaları üçün şərait yaradılıb. Ancaq aksiya ilə bağlı bir sıra təhlükəsizlik xarakterli məhdudlaşdırıcı tədbirlər, eyni zamanda, media işçilərinə də tətbiq edilib. Bununla əlaqədar monitorinq qrupuna məlumatlar daxil olub.

Jurnalistlərin tam əksəriyyəti aksiya zamanı üzərində "Press" yazılmış gödəkcələrdə olublar. Bununla belə, bir sıra KİV nümayəndələri aksiyaya bu tələbə məhəl qoymadan qatılıblar. Üzərində "Press" yazılmış gödəkcələrdə olan bəzi jurnalistlər isə özlərini aksiya iştirakçısı kimi aparıblar.

Azərbaycan Mətbuat Şurası bir daha bildirir ki, jurnalistlər bütün hallarda sırf peşə fəaliyyətlərini yerinə yetirməlidirlər. Mətbuat Şurası hüquq mühafizə orqanlarının təmsilçilərini də bir daha üzərində "Press" yazılmış gödəkcələrdə olan media nümayəndələrinə müvafiq şərait yaratmağa, ümumən jurnalistlərə münasibətdə həssas və diqqətli davranışa çağırır.

## Bakı Şəhər Baş Polis İdarəsinin məlumatı

Xəbər verildiyi kimi, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun üzvləri "Sərbəst toplaşmaq azadlığı haqqında" qanuna zidd olaraq oktyabr ayının 19-da saat 15:00-da metronun "28 May" stansiyasının önündəki meydanda mitinq keçirməyə cəhd göstəriblər.

Bakı Şəhər Baş Polis İdarəsindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, görülmüş tədbirlərlə bu hüquqazidd hərəkətlərin qarşısı alınıb, onun təşkilatçıları və bəzi iştirakçıları saxlanılaraq barələrində müvafiq tədbirlərin görülməsi təmin edilib.

Saxlanılanlar arasında Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli də olub. O, barəsində müvafiq sənədləşmə aparılması üçün xüsusi avtomobilə əyləşdirilən zaman polis əməkdaşlarına müqavimət göstərib, nəticədə alnı avtomobilin dəmir barmaqlığına dəyərək xəsarət alıb.

Əli Kərimliyə Daxili İşlər Nazirliyinin Hospitalında tibbi yardım edilib, daha sonra izahatı alınaraq sərbəst buraxılıb.

# Azərbaycan-Pakistan əlaqələri inkişaf edir

Oktyabrın 21-də Milli Məclis Sədrinin birinci müavini, parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Pakistan Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya federal naziri Fehmida Mirza Ninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycan ilə Pakistanın dost və qardaş ölkələr olduğunu bildirib. Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlətdir. Xüsusilə Azərbaycanın müstəqilliyinin ilk illərində Pakistan Azərbaycana çox kömək edib. Hazırda ölkələrimiz arasında siyasi, iqtisadi, ticari, humanitar, hərbi-texniki əlaqələr çox yüksək səviyyədədir.

Z.Əsgərov diqqətə çatdırıb ki, münasibətlərimizin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusi rol oynayıb, bir sıra vacib sənədlər imzalanıb. Ölkələrimiz bir sıra beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edir və biz bu əməkdaşlığın daha da güclənməsində maraqlıyıq.

Komitə sədri Pakistanın beynəlxalq təşkilatlarda Azərbaycana verdiyi daimi dəstəyə, həmçinin Xocalı soyqırımı ilə bağlı Pakistan Milli Assambleyasında qəbul olunmuş qətnamələrə görə təşəkkürünü bildirib.

Ölkəsinin Azərbaycan ilə sıx tarixi köklərlə bağlı olduğunu deyən xanım Fehmida Mirza Nİ Pakistanda mövcud olan Kəşmir, Azərbaycanda isə Dağlıq Qarabağ münaqişələrinin oxşarlığından danışıb. Qonaq bu münaqişələrin həllində Pakistan və Azərbaycanın həmişə bir-birinə dəstək verməsindən məmnunluğunu bildirib. Söhbət zamanı bu münaqişələrin həlli üçün əlaqələrimizin bundan sonra inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişafı, idman sahəsində əməkdaşlıq, Pakistanın istehsal etdiyi idman məhsullarının Azərbaycanda tanıdılması və tərəfləri maraqlandıran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Eldar İbrahimov və digər rəsmi şəxslər iştirak ediblər.

# Pakistan Azərbaycanın idman sahəsindəki təcrübəsindən yararlanmaq istəyir



Pakistan Azərbaycanın idman sahəsindəki təcrübəsindən yararlanmaq istəyir. Bunu ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya üzrə federal naziri Fehmida Mirza Ni oktyabrın 21-də Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov ilə görüşdə deyib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə A.Rəhimov Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan birinci dövlət olduğunu və hər iki ölkənin illərə söykənən dostluq və qardaşlıq münasibətlərinin daim inkişaf etdiyini diqqətə çatdırıb. Nazir qeyd edib ki, Anlaşma Memorandumu ölkələrimizdə idman sahəsinin inkişafına çox böyük dəstək verəcək. Qonaq ölkəmizə səfəri çərçivəsində Azərbaycan Milli İdman Tibb və Reabilitasiya İnstitutu, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və digər idman qurğuları ilə tanış olacaq, ölkəmizdə idman infrastrukturu barədə geniş məlumat əldə edəcək.

Azərbaycanda gənclər sahəsində görülən işlər barədə də qonağa məlumat verən A.Rəhimov Gənclər və İdman Nazirliyi tərəfindən uzun müddətdir müxtəlif ölkələrdə gerçəkləşdirilən "Mən Azərbaycan haqqında nə bilirəm?" esse müsabiqəsində Pakistan gənclərinin də fəal iştirak etdiklərini və qaliblərin dəfələrlə ölkəmizə səfər etdiklərini diqqətə çatdırıb.

Yüksək qonaqpərvərliyə görə xüsusi təşəkkürünü bildirən Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Federal naziri xanım Fehmida Mirza Ni Azərbaycanın idman sahəsində sürətlə inkişaf etdiyini və Pakistanın ölkəmizin təcrübəsindən yararlanmaqda maraqlı olduğunu bildirib.

Fehmida Mirza Ni Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə təşkil etdiyini vurğulayıb. O, Pakistanın da bu səpkili yarışlara evsahibliyi etmək istədiyini söyləyib. Qonaq bildirib ki, idman diplomatiyası onun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Ölkəmizin idman sahəsində çox böyük təcrübəyə malik olduğunu söyləyən Fehmida Mirza Ni idman diplomatiyasına Azərbaycanın da cəlb oluna biləcəyini və bununla da münasibətlərin yeni mərhələyə qədəm qoya biləcəyini vurğulayıb.

Xanım nazir Azərbaycan və Pakistan idmançılarının idmanın müxtəlif növləri üzrə birgə təlim-məşq toplanışlarına qatılmalarının idmanın inkişafında önəmli addım olduğunu bildirib, bu istiqamətdə də əməkdaşlığı genişləndirməyin vacibliyini diqqətə çatdırıb. Azərbaycanın əsrarəngiz ölkə olduğunu və turizmin inkişaf etdiyini söyləyən qonaq pakistanlıların son illərdə respublikamıza artan marağından xüsusilə söz açıb.

Görüşdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Nazirliyi arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

# Bir gündə 650 min ağacın əkilməsi ətraf mühitin qorunması üçün faydalı olacaq

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın irəli sürdüyü bütün təşəbbüslər millətin rifahına, dövlətin və dövlətçiliyin möhkəmlənməsinə istiqamətlənib. Onun təşəbbüsü ilə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə 650 min ağacın əkilməsi ideyası dahi şairin xatirəsinə ehtiramla yanaşı, ətraf mühitin qorunması baxımından böyük əhəmiyyət daşıyır.

Bunu Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinin dekanı, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Fərrux Rüstəmov AZƏRTAC-a söyləyib.

Qeyd olunub ki, bu humanitar təşəbbüs dünya xalqlarının diqqətini Azərbaycana, mütəfəkkir şair Nəsimi irsinə cəlb etməklə, Azərbaycan mədəniyyətini, mənəviyyatını və dəyərlərini təbliğ edir. Eyni zamanda, ekoloji mühitin sağlamlaşdırılmasına böyük töhfədir. Həm Bakı şəhərində, həm də regionlarda bu təşəbbüs ciddi dəstək qazanıb. ADPU-nun təmsilçisi kimi deyə bilərəm ki, universitetimizin professor-müəllim heyəti və tələbə kollektivi də bu tədbirdə fəal iştirak etməklə öz vətəndaşlıq borcunu yerinə yetirəcək.

* * *

Ağac əkmək, ana torpağın sinəsinə şitil basdırmaq, onu böyüdüb boya-başa çatdırmaq həmişə ən savab işlərdən biri sayılıb. Təsadüfi deyildir ki, İslam peyğəmbərinin kəlamlarının birində də bu işə çox böyük dəyər verilib: "Qiyamət gününə bir gün qalsa da, ağac ək".

Ağac əkmək bir növ canlı yaratmağa bənzəyir. Dünyaya gələn körpənin ana qayğısına, valideyn nəvazişinə ehtiyacı olduğu kimi, torpağa basdırılan hər fidanın da bağban qayğısına ehtiyacı var. Ona görə də yerə ting basdırmaqla iş bitmir, gərək həm də onun qayğısını çəkib, böyüdəsən.

Bu barədə AZƏRTAC-a K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin baş pediatrı, professor Nəsib Quliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkmək təşəbbüsünə münasibət bildirərkən deyib.

Həmin təşəbbüsün rəğbətlə qarşılandığını ifadə edən həkim-pediatr daha sonra əlavə edib: "Ağaclar bizi əhatə edən mühiti oksigenlə təchiz edir. Fotosintez zamanı yeni açılan yaşıl yarpaqlar karbon qazını udub oksigeni havaya buraxır. Bu isə ətraf mühitin sağlamlaşmasına, nəfəs aldığımız havanın oksigenlə zənginləşməsinə çox böyük töhfədir. Hesab edirəm ki, bu nəcib təşəbbüsün həyata keçirilməsi cəmiyyətin, gələcək nəslin, o cümlədən uşaqların sağlamlığında çox böyük rol oynayacaq. Ona görə də heç kəs bu təşəbbüsdən kənarda qalmamalı, hər kəs bir neçə ağac əkərək ekologiyanın, ətraf mühitin sağlamlaşması işində yaxından iştirak etməlidir".

# Vətəndaşların qəbulu keçirilib

Oktyabrın 21-də Vergilər nazirinin müavini Mətin Eynullayev Bərdə şəhərində Bərdə, Yevlax, Şəki, Ağdam, Tərtər rayonlarından və Mingəçevir şəhərindən olan vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda vergi qanunvericiliyinin tətbiqi, vergi orqanlarında işlə təminolunma, habelə vergi inzibatçılığı sahəsində vergi ödəyicilərinin qarşılaşdıqları bir sıra məsələlərlə bağlı müraciətlərə baxılıb.

Vətəndaşların müraciətləri dinlənilib, bəziləri yerindəcə həll olunub, digər məsələlər barədə nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verilib.

# PAL ZİLERİ payız-qış kolleksiyasını təqdim etdi

## müasir kişi geyiminə yeni baxış





**Pal Zileri brendi kişilər üçün yaradılan dəb trendlərinə özünəməxsus baxışı ilə seçilir. Onun əsasını uzun illər boyu kişi kostyumu üzərində iş təcrübəsi və xırda detallara yüksək diqqət təşkil edir. İtalyan tikiş sənətinin ənənələri ilə müasir texnologiyaların tətbiqinin birləşməsi Pal Zileri-ni əsl İtaliya keyfiyyətinin sinoniminə çevirib.**

Brendin 2019/20 payız-qış kolleksiyası ilk baxışdan ziddiyyətli anlayışları birləşdirib, müasir kişinin şəxsiyyətini aşkara çıxarır.

Qeyri-adi parça seçiminə baxmayaraq, məxmər, velvet, tvid - siluetlər sadədir.

Bu mövsüm klassik üç hissədən ibarət kostyumu köynək və qalstukla deyil, sadə ağ t-shirtlə, smokinqi isə gündəlik üslubda şalvar və əlvan köynəklə geyinmək təklif olunur. Ümumiyyətlə, brendin bu kolleksiyasının modellərini üst-üstə bir neçə qat geyinmək tövsiyə olunur - bunu 20-ci illərin üslubunda, ətək xətti düz, yaxası isə pencək yaxası kimi olan jiletlər də təsdiqləyir.

Pal Zileri həmçinin köynəklərin xüsusi yaxa biçimini dəbə salır - belə yaxa qalstuk tələb etmir, lakin son düyməsinə kimi bağlı olması məsləhət görülür.

Hər zaman olduğu kimi, tikiliş keyfiyyətinə xüsusi diqqət yetirilib düşünülmüş maraqlı detallar və aksesuarları da nəzərə alsaq, kolleksiyanın modelləri ilə siz istər gündəlik, istər klassik, istər idman üslubunda müasir və zövqlü obrazlar yarada bilərsiniz.

2019/20 payız-qış kolleksiyası ilə Netçilər pr-ti, 83 ünvanında, brendin mağazasında tanış ola bilərsiniz.

Tel: (050) 385-50-73









# Baş Prokurorluq oktyabrın 19-da keçirilmiş qanunsuz aksiya ilə bağlı məlumat yayıb

Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə, eləcə də özünü Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) sədri kimi təqdim edən Kərimli Əli Əmirhüseyn oğlunun özünə aid "Facebook" səhifəsində oktyabrın 19-da keçirdikləri qanunsuz mitinq zamanı polis əməkdaşları tərəfindən ona xəsarət yetirilməsi barədə paylaşılmış məlumatlar və ictimai qaydanın kobud pozuntusu ilə müşayiət olunan hərəkətlərin qarşısı alınarkən hakimiyyət nümayəndələrinə qarşı müqavimət göstərilməsinə dair xüsusatlar Bakı Şəhər Prokurorluğunda araşdırılıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran qurumun üzvləri oktyabrın 19-da paytaxtın mərkəzi ərazilərindən birində mitinq keçirmək barədə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ediblər. Müraciətə baxılaraq "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun müvafiq tələblərinə əsasən ictimai asayişin pozulmasının qarşısının alınması, iğtişaş və cinayətlərin baş verməməsi, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə aksiyanın keçirilməsi üçün Bakı şəhərinin Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Neftçi" idman klubunun təlim bazası təklif olunub.

Oktyabrın 19-da Milli Şura adlandırılan qurumun üzvləri, eləcə də özünü AXCP-nin sədri kimi təqdim edən Əli Kərimli, həmin qurumun rəhbərliyində təmsil olunan şəxslər və digər destruktiv qruplar paytaxtın mərkəzi hissəsində razılaşdırılmamış, qanunsuz kütləvi aksiya keçiriləcəyi təqdirdə qarşısının alınacağı və baş verə biləcək ictimai qayda pozuntularına görə məsuliyyət daşıyacaqları barədə Daxili İşlər Nazirliyinin və Baş Prokurorluğun xəbərdarlığından nəticə çıxarmayaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinin tələblərinə zidd olaraq, Bakı Metropoliteninin "28 May" stansiyasının ətrafında razılaşdırılmamış mitinq keçirməyə və ictimai asayişi pozmağa cəhd göstəriblər.

Paytaxtın hüquq mühafizə orqanlarının əməkdaşları tərəfindən həmin qanunazidd hərəkətlərin qarşısı alınıb. Toplantıların təşkili və keçirilməsi qaydasının tələblərini pozduqlarına görə 60 şəxs barəsində inzibati xətalar haqqında qanunvericiliyin tələblərinə uyğun olaraq müvafiq tədbirlər görülüb.

Qanunsuz aksiya zamanı Əli Kərimli yaşadığı evdən çıxaraq razılaşdırılmamış mitinqin keçirildiyi əraziyə doğru irəliləyib açıq çağırışlar etdiyindən onun ictimai qaydanı qəsdən pozmaq cəhdinin, insanlar arasında yarana biləcək qarşıdurmanın, əhalinin rahatlığının pozulmasına yönələn hərəkətlərinin qarşısını almaq və inzibati məsuliyyətə cəlb etmək məqsədilə ərazidə xidmət edən polis əməkdaşları tərəfindən xidməti avtobusa mindirilib. Həmin vaxt Əli Kərimli polis əməkdaşlarının qanuni tələblərinə tabe olmamaqda ifadə edilən hərəkətlərə yol verərək, onların ünvanına nalayiq söyüşlər işlədib, iki polis əməkdaşına müqavimət göstərərək onlara xəsarətlər yetirib. O, müqavimətini davam etdirib polis əməkdaşlarını itələyərək avtobusdan enməyə və təxribata cəhd edərək baş nahiyəsini avtobusun dəmir barmaqlıqlı qapısına bir neçə dəfə vurub, nəticədə alın nahiyəsindən xəsarət alıb.

Bundan sonra barəsində qanunamüvafiq tədbir görülməsi üçün Xətai Rayon Polis İdarəsinə gətirilmiş Əli Kərimliyə dərhal ilkin tibbi yardım göstərilib, o, məhkəmə-tibb eksperti tərəfindən müayinə edilib. Onun baş nahiyəsində olan xəsarətin xarakterinə və lokalizasiyasına görə polis əməkdaşlarına müqavimət göstərərkən özü tərəfindən avtobusun dəmir barmaqlıqlı qapısına vurması nəticəsində törənməsi ekspertiza rəyində əksini tapıb. Daha sonra Əli Kərimli Daxili İşlər Nazirliyinin hospitalında müayinədən keçirilib və nəticədə heç bir patoloji hal aşkar edilmədiyindən ona xəbərdarlıq elan edilərək evinə buraxılıb.

Həmçinin Əli Kərimlinin müqavimət göstərdiyi polis əməkdaşları məhkəmə-tibb eksperti tərəfindən müayinə ediliblər. Onların bədənində göstərilən şəraitdə yetirilməyə xarakterik xəsarətlər müəyyən olunub.

Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə paytaxtın mərkəzi hissəsində razılaşdırılmamış və qanunsuz təşkil edilmiş kütləvi aksiyanın qarşısı alınarkən polis əməkdaşları tərəfindən güc tətbiq edilməsi barədə paylaşılmış məlumatlar tamamilə əsassız olmaqla Baş Prokurorluq tərəfindən təkzib edilir. Belə ki, qanunvericiliyin müəyyən etdiyi hədlərdə və vasitələrlə fiziki qüvvə tətbiqi polis əməkdaşlarının qanuni tələblərini icra etməyən inzibati xəta və ya cinayət törətmiş şəxslərin tutulması, eləcə də hüquqpozmaların törədilməsi zamanı onlara qarşı güc işlədilməsi hallarında nəzərdə tutulub. Məlum qanunsuz təşkil edilmiş aksiyanın qarşısının alınması zamanı polis əməkdaşları tərəfindən həmin qanunvericiliyin pozulması hallarına yol verilmədiyi və ümumiyyətlə, hər hansı xüsusi vasitələrdən istifadə edilmədiyi müəyyən olunub. Polis əməkdaşları tərəfindən hər hansı güc tətbiqinə və zorakı hərəkətlərə yol verilməyib.

# *Leyla ABDULLAYEVA:* "Azərbaycanda insanların fundamental hüquq və azadlıqları tam təmin edilir"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Avropa İttifaqının (Aİ) sözçüsünün oktyabrın 19-da Bakıda aksiyanın keçirilməsi cəhdi ilə bağlı açıqlamasına dair AZƏRTAC-ın sualını cavablandırıb.

Bununla bağlı Leyla Abdullayeva deyib: "Təəssüflə qeyd etmək istərdim ki, Avropa İttifaqının sözçüsü tərəfindən verilən açıqlamada qeyd edilmir ki, bu aksiyanın keçirilməsi üçün Bakı şəhərinin digər ərazisində müvafiq yer ayrılmışdı. Aksiya iştirakçısı olan bir qrup şəxs isə icazəsiz şəkildə həftəsonu əhalinin istirahət etdiyi və sıx olduğu mərkəzi küçələrə çıxmışdı. Bu qanunsuz aksiyaya görə 3 metro stansiyası və 14 avtobus xətti bağlanmış və şəhərdə insanların hərəkətinə maneələr yaranmışdır. Qeyd etmək istərdim ki, aksiya iştirakçılarına qarşı hər hansı zorakılıq tətbiq olunmamış və Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən yayılmış rəsmi açıqlamada qeyd edildiyi kimi, saxlanılan şəxslərin böyük əksəriyyəti rəsmi xəbərdarlıq edildikdən sonra buraxılmışdır. Bakıdakı hadisələri yaxından izləyən Avropa İttifaqının, yəqin ki, bu məlumatlardan xəbəri olmalı idi. Qeyri-qanuni aksiyaların və hüquqazidd əməllərin qarşısının alınması hər bir hüquqi dövlətdə olduğu kimi, Azərbaycan Respublikasında da müvafiq hüquq mühafizə qurumları tərəfindən təmin olunur. Aİ üzv ölkələrində baş verən qanunsuz aksiya iştirakçılarına münasibətdə görülən tədbirləri hamımız izləyirik və hesab edirik ki, bu məsələdə ikili standartlara yol verilməməlidir. Aİ sözçüsünə İttifaqın üzv ölkələri ərazisində son zamanlar kütləvi hal daşıyan iğtişaşlarda istifadə olunan güc və insan ölümü halları barədə, eləcə də bu ölkələrdə artmaqda olan islamofobiya, radikal millətçi, hətta faşist partiyalarının fəaliyyəti haqqında düşünməyi tövsiyə edirik. Qeyd olunan məsələlərlə bağlı Aİ-nin açıqlamalarının verilməsi digər ölkələr tərəfindən İttifaqın fərqli standartlara yol vermədiyinə inamı artıra bilərdi".

Leyla Abdullayeva əlavə edib ki, Azərbaycanda insanların fundamental hüquq və azadlıqları tam təmin olunur və bu proses ölkənin ali qanunu olan Azərbaycan Respublikasının Konstitusiyası, digər müvafiq qanunları, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyəti və beynəlxalq öhdəlikləri vasitəsilə tənzimlənir.

# Bəzi təşkilatların əsassız bəyanatlar yayması Azərbaycana münasibətdə ikili standartların tətbiqi kimi qiymətləndirilməlidir

Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Avropa Şurasının İnsan hüquqları üzrə Komissarının bəyanatının şərh edilməsi ilə bağlı KİV-in ünvanladığı sualı cavablandırıb.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi Leyla Abdullayeva deyib: "Gənc demokratik ölkə olan Azərbaycanda insanların bütün hüquq və azadlıqları, o cümlədən sərbəst toplaşmaq hüququ təmin olunub. Vurğulamaq istərdim ki, bir qrup insanın sərbəst toplaşmaq hüququ digər qrup insanların hüquqlarının pozulması hesabına təmin oluna bilməz. Bunu hamıdan yaxşı Avropa Şurasının İnsan hüquqları Komissarının bilməsi gərəkdir.

Oktyabrın 19-da bir qrup şəxsin mitinq keçirmək müraciətinə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən baxılaraq, "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinə əsasən, metropolitenin mühafizə zonalarında toplantıların keçirilməsi qadağan edildiyindən bu mitinqin keçirilməsi üçün Bakı şəhərində digər ərazi müəyyən edilmişdir. Mitinq müraciəti edən şəxslər qəsdən toqquşma yaratmaq məqsədilə şəhərin mərkəzi küçələrinə axışmağa cəhd etmişlər və hüquq mühafizə orqanları bu qanunsuz aksiyanın qarşısını almağa məcbur olmuşdur. Polis kübar və mədəni davranış nümayiş etdirib və heç kim ciddi xəsarət almamışdır. Aksiyada iştirak edənlərin böyük əksəriyyəti rəsmi xəbərdarlıq edildikdən sonra sərbəst buraxılmışdır, digər şəxslərlə bağlı isə işlərinə müvafiq qaydada baxılıb qərar qəbul ediləcəkdir.

Komissarın bəzi Avropa ölkələrində nümayişçilərə qarşı rezin güllələrdən və həddindən artıq şiddətdən istifadə olunması hallarına nəzər yetirməsi yaxşı olardı.

Bəzi təşkilatların məsələnin mahiyyətinə varmadan, müvafiq rəsmi qurumların mövqeyini öyrənmədən tələsik şəkildə əsassız bəyanatlarla çıxış etməsi hər hansı bir şəkildə faydalı adlandırıla bilməz, əksinə, Azərbaycana münasibətdə ikili standartların tətbiq edilməsi kimi qiymətləndirilməlidir.

Bir daha vurğulayıram ki, Azərbaycanda insanların fundamental hüquq və azadlıqları təmin olunur və ölkənin hüquq mühafizə orqanlarının əsas vəzifəsi məhz bu azadlıqların keşiyində durmaqdır".

İspaniya








ABŞ





Honqkonq






Fransa








Almaniya






# Azərbaycan polisi yüksək peşəkarlığı və humanistliyi ilə dünyaya nümunə göstərir

**Bu günlərdə özünü müxalifət adlandıran Milli Şuranın Bakının mərkəzi küçələrindən birində ictimai asayişi pozaraq qeyri-qanuni aksiya təşkil etmək cəhdləri müəyyən gərginliyə səbəb oldu. Daxili İşlər Nazirliyinin (DİN) və Baş Prokurorluğun ictimai asayişin pozulmasına yönələn qanunsuz hərəkətlərin qarşısının qətiyyətlə alınacağına dair xəbərdarlıq yaymasına baxmayaraq, aksiya iştirakçıları icazəli mitinqdən imtina edərək qarşıdurma yolunu tutdular və şəhərin mərkəzində ictimai asayişi pozmağa çalışdılar. Amma bunun müqabilində Azərbaycan polisi humanist davranaraq, düzgün və məqsədyönlü fəaliyyəti nəticəsində heç bir vasitədən istifadə etmədən təxribatın qarşısını aldı, sabitliyi bərpa etdi.**

Sosial şəbəkələrdə mitinqdə polisin fəaliyyəti ilə bağlı qərəzli, məqsədli və sifarişli şərhlər, paylaşımlar edilir ki, bu da antimilli qüvvələrin çirkin kampaniyasının tərkib hissəsidir. Azərbaycanda idarəolunmaz bir prosesin olmasını istəyən bəzi dağıdıcı dairələr hər fürsətdə istəyirlər ki, ölkə polisini gözdən salsınlar. Ona görə də sosial şəbəkələrdə uydurma şərhlər, videolar paylaşaraq cəmiyyətdə çaşqınlıq yaratmaq istəyirlər. Onlar adi bir məsələni şişirdib polisi qaralamağa çalışırlar. Lakin Azərbaycan polisinə qarşı aparılan bu qarayaxma iflasa məhkumdur.

Qeyd edək ki, internet resurslarına yerləşdirilən videogörüntülərdə baş verənlərin mahiyyətini anlamağa imkan verən bir neçə ciddi məqam var. Polis etirazçılardan birinə deyir ki, xahiş olunur o yana getməyin, geri qayıdın. Bu, Azərbaycan polisinin öz vətəndaşına göstərdiyi qayğıdır, onun danışıq və düşüncə tərzidir. Ümumiyyətlə, polis çalışır ki, insanların təhlükəsizliyini təmin etsin.

Bu gün beynəlxalq miqyasda icazəsiz aksiyalar, qanunsuz mitinqlər məqbul sayılmır və belə hərəkətlər ölkədə xaos yaratmaq kimi dəyərləndirilir. Qanunsuz mitinq keçirilən dünyanın bir çox inkişaf etmiş ölkələrində - Böyük Britaniyada, Almaniyada, Fransada, Hollandiyada, İspaniyada və digərlərində etirazçılarla olduqca sərt və amansızcasına davranırlar. Etirazçıların üzərlərinə hətta at və itlə belə gedirlər. Azərbaycan polisi isə sonuncu aksiyada nümayiş etdirdiyi yüksək peşəkarlığa və qətiyyətə görə hər cür təqdirə layiqdir.

Dünyada özlərini demokratik ölkələr sayan əksər dövlətlərdə belə hallar zamanı necə davrandıqları ilə bağlı çoxlu nümunələr var. Bu günlərdə İspaniyanın Barselona şəhərində keçirilən mitinq dünya birliyinin daha çox diqqət mərkəzində yer aldı. Belə ki, İspaniya Ali Məhkəməsi müstəqillik barədə qanunsuz referendumun təşkilində ittiham olunan siyasətçiləri 9 ildən 13 ilədək həbs cəzasına məhkum etdikdən sonra Barselonanı mitinqlər dalğası bürüdü. Təhlükəsizlik qüvvələrinin nümayişçiləri nəzarət altına alması və qeyri-bərabər gücdən istifadə etməsi dünya gündəmində öz yerini tutdu. Separatçı qruplaşmalar və təhlükəsizlik qüvvələri arasında toqquşmalar nəticəsində 180 nəfər həbs edilib, 152 nəfər müxtəlif dərəcəli xəsarət alıb. Nümayişçilər milli polis qərargahını mühasirəyə alıb, polislərin üzərinə daş və yanan əşyalar atıb, barrikadalar düzəldib, konteynerləri yandırıblar.

Bibər qazı və gözyaşardıcı qazdan istifadə edən təhlükəsizlik qüvvələri Barselona küçələrini hərb meydanına oxşatdı. İspaniya polisinin nümayişçilərə qarşı tətbiq etdiyi zorakılıq bir çox insanın yaralanmasına səbəb oldu. Nümayişçilərin polislər tərəfindən saxlanılmaları zamanı sivil geyimli polis qüvvələrinin zorakılıq tətbiq edərək nəzarətə götürülənləri amansızcasına döydüyü müşahidə olundu. İspaniya polisinin nümayişçilərdən bəzilərini birbaşa hədəf götürərək plastik güllə ilə vurması qeyri-bərabər gücün ən ciddi göstəricilərindən oldu.

Analoji hadisə bu günlərdə Honqkonqda növbəti dəfə qeydə alındı. Beş aydır davam edən etirazlarda aksiyaçılar daha çox Çimsaçey rayonunda toplaşıb, polis şöbəsinə yandırıcı maddə doldurulmuş butulkalar atıblar. Ən azı 7 metro stansiyası təhlükəsizlik tədbirləri ilə əlaqədar bağlanıb. Polis aksiyaçılara qarşı gözyaşardıcı qaz və su şırnağından istifadə edib.

Srağagün Çilidə metro tariflərinin artması səbəbindən başlayan etirazlar yenidən polislə qarşıdurmaya səbəb olub, paytaxt Santyaqonun mərkəzinə zirehli maşınlar gətirilib. Polislə toqquşma nəticəsində 10 nəfər həlak olub. İnsanlar barrikadalar quraraq qiymətlərin artması ilə razılaşmadıqlarını bir çox metro stansiyalarına ziyan vurmaq, ticarət mərkəzlərini, eləcə də avtobusları yandırmaqla bildiriblər.

Ötən ilin dekabrında Fransada qiymət artımına qarşı keçirilən “sarı jiletlilər”in nümayişləri zamanı polisin vətəndaşlara zor tətbiq etməsinə aid çoxlu sayda foto jurnalistlərin obyektivinə düşüb. 2019-cu il mayın 1-də Parisdə 1 May münasibətilə keçirilən mitinqdə polis nümayişçilərlə amansız davranıb.

Bir neçə il əvvəl Frankfurt, London, Madrid, Lissabon kimi iri şəhərlər Avropa Mərkəzi Bankının fəaliyyətinə olan etiraz dalğalarından silkələnmişdi. Buna görə Almaniyanın Frankfurt şəhərində “Blockupy” hərəkatı zamanı kütləvi aksiyalar təşkil edilirdi. Bu zaman da polis aksiya iştirakçılarına qarşı zor tətbiq etmişdi.

Özünü dünyanın ən demokratik ölkəsi hesab edən Amerika Birləşmiş Ştatlarında da etirazlar zamanı polis güc tətbiq edir. ABŞ-da hətta polis qəddarlıqda ittiham olunur, polis zorakılığına qarşı aksiyalar da keçirilir.

Amma Azərbaycan polisi bu gün ölkədə daxili sabitliyin və asayişin qorunması işini uğurla davam etdirir. Buna görə hər bir ölkə vətəndaşı öz polisinə güvənir.

*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*

Çili





İtaliya





# *NATO kontr-admiralı:* “Azərbaycan hərbi qulluqçularının peşəkarlıq səviyyəsi onların güclü olduğundan xəbər verir”

Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlıq səviyyəsi onların güclü olduğundan xəbər verir. AZƏRTAC xəbər verir ki, bunu NATO-nun Müttəfiq Qüvvələrin Avropadakı Ali Baş Qərargahında (SHAPE) Tərəfdaşlıq İdarəsinin rəisi, kontr-admiral Bülent Turan Müdafiə Nazirliyinin saytına müsahibəsində deyib.

Azərbaycanda “NATO günləri”nin əhəmiyyətini yüksək qiymətləndirən Bülent Turan tədbir zamanı bir neçə təşkilat və hərbi müəssisələrdə olduqlarını bildirərək deyib: “Mənimlə birlikdə səfərdə olan nümayəndə heyətinin tərkibində bir neçə ölkənin və NATO-nun qərargah zabitləri iştirak edirdilər. Bu nümayəndə heyəti ilə birlikdə qarşılıqlı olaraq azərbaycanlı həmkarlarımızla təcrübə, məlumat və fikir mübadiləsi apardıq. Bu səbəbdən düşünürəm ki, bu tədbir bir neçə fəaliyyətin ardı kimi də davam etdirilə bilər. Bu il Azərbaycanda icra olunmuş 11-ci “NATO günləri”ni əməkdaşlığın davamı üçün çox gözəl platforma hesab edirəm.

Azərbaycan tərəfinin NATO günlərinə, eyni zamanda, NATO ilə əməkdaşlıq çərçivəsində keçirilən tədbirlərə diqqətini çox yüksək qiymətləndirir və bundan böyük məmnunluq hissi keçirdiyimizi qeyd etmək istərdim. Məhz bu səbəbdən Azərbaycanın NATO ilə əməkdaşlıqda daha fəal və konstruktiv mövqe nümayiş etdirən tərəfdaş ölkələrdən olduğunu düşünürük. Tədbir zamanı ziyarət etdiyimiz müəssisələrdə hərbi qulluqçuların ünvanladığı suallar və auditoriyanın təqdimatlar zamanı diqqət və fəallıq nümayiş etdirməsinin bunun əyani sübutu olduğunu düşünürəm. Həqiqətən də bu tədbirə olan maraq bizləri həddindən artıq məmnun etdi”.

Kontr-admiral vurğulayıb ki, bu il Azərbaycanın NATO ilə əməkdaşlığının 25 illiyi tamam olub. Bu məqam isə uzun bir zamanı ehtiva edir. Müşahidələr göstərir ki, Azərbaycan NATO ilə əməkdaşlıq çərçivəsində ən fəal tərəfdaş ölkələrdən biri hesab edilir. Biz Azərbaycanı NATO-nun müxtəlif əməliyyatlarında, Tərəfdaşlığın Qərargah Vəzifəsi Zabiti olaraq müxtəlif NATO qərargahlarına töhfə verməsində, eləcə də Əməliyyat İmkanları Konsepsiyası Qiymətləndirmə və Rəy Proqramı çərçivəsində fəal tərəfdaş ölkə olaraq görürük. Bu səbəbdən Azərbaycan NATO üçün önəmli, eyni zamanda, əhəmiyyətli tərəfdaşlardan hesab edilir.

NATO-nun perspektivi baxımından qiymətləndirsək, onu vurğulamaq lazımdır ki, əməkdaşlıq sadəcə məlumat mübadiləsi ilə kifayətlənmir. Tərəfdaşların əldə etdiyi dəyərli təcrübələrin öyrənilməsi və paylaşılması da NATO üçün böyük əhəmiyyət kəsb edir. Bu isə öz növbəsində qarşılıqlı faydalanmanı, necə deyərlər, hər iki tərəf üçün “qazanclı əməkdaşlığı” özündə ehtiva edir. Beləliklə də, inanıram ki, rəhbərlik etdiyim nümayəndə heyəti azərbaycanlı həmkarlarımızdan çox dəyərli biliklər və təcrübələr əldə edib. Buna görə də bu tədbirin NATO üçün də böyük əhəmiyyət kəsb etdiyinə əminəm.

“Baxmayaraq ki, Azərbaycan fəal və konstruktiv əməkdaşlıq nümayiş etdirir, fəaliyyət proqramı çərçivəsində ziyarətlərimiz əsnasında bir neçə inkişaf etdirilməsi mümkün olan sahələri də müşahidə etdik. Müşahidələrimiz ona əsas verir ki, bu inkişaf tempini qoruyub saxlamaq və daha irəli getmək əhəmiyyətlidir. Biz də öz növbəmizdə qərargahlarımıza geri döndükdən sonra müvafiq olaraq bu istiqamətdə fəaliyyətlərimizi genişləndirmək niyyətindəyik. Xüsusilə təlim üzrə və qərargah vəzifələrində də irəliləyişə ehtiyac olduğunu vurğulamaq istərdim. Mən bununla sadəcə bu sahələri deyil, eyni zamanda, mümkün ola biləcək digər sahələrdə də inkişaf perspektivlərini nəzərdən keçirəcəyimizi düşünürəm.

Son beş gün ərzində biz Azərbaycanda icra olunan illik “NATO günləri”ndə iştirak etdik. Qeyd etmək istərdim ki, bu, mənim Azərbaycana ilk səfərim idi. Əslində vurğulamaq istərdim ki, ali rütbəli bir türk zabiti olaraq, Azərbaycana ziyarətim xoş bir təsadüf hesab edilə bilər. Azərbaycanın fəal tərəfdaş ölkə olmasını görmək bizi də heyrətləndirir. Sadəcə xatırlatmaq yerinə düşər ki, hamımızın da bildiyi kimi, Azərbaycan NATO-nun müxtəlif əməliyyatlarına önəmli şəkildə töhfə verən ölkələrdəndir. Vaxtilə NATO-nun Kosovodakı sülhməramlı əməliyyatlarında və hazırda da NATO-nun Əfqanıstanda icra etdiyi “Qətiyyətli Dəstək” Missiyasına töhfə verən fəal tərəfdaş ölkələrdən biridir. Bununla belə, inanıram ki, qısa müddət ərzində Azərbaycan NATO-nun İraq Missiyasına da öz töhfəsini verən ölkələrdən olacaqdır. Eyni zamanda, bildirmək istərdim ki, səfər çərçivəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının peşəkarlıq səviyyəsini müşahidə etməyimiz Azərbaycan Silahlı Qüvvələrinin müvəffəqiyyətli və güclü olduğundan xəbər verir.

# Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyi ilə əlaqədar Sofiyada ağacəkmə mərasimi keçirilib

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 və Bolqarıstan Respublikası diplomatik xidmətinin 140 illik yubileyləri ilə əlaqədar Sofiya şəhərində “Bakı” küçəsində yerləşən parkda ağacəkmə mərasimi təşkil olunub.

Ağacəkmə mərasimi Azərbaycanın Bolqarıstandakı səfirliyi, Bolqarıstanın Xarici İşlər Nazirliyi və Sofiya şəhəri merinin ofisi ilə birgə təşkil edilib. Parkda üç çinar ağacı əkilib. Mərasimdə Azərbaycanın Bolqarıstandakı səfiri Nərgiz Qurbanova, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İsa Həbibbəyli, Sofiya şəhəri merinin müavini Yoana Xristova, Bolqarıstan XİN-in nümayəndəsi, “Bakı” küçəsinin yerləşdiyi “Studentski” rayonu merinin ofisindən nümayəndələr və səfirlik əməkdaşları iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən N.Qurbanova cari ilin həm Azərbaycan, həm də Bolqarıstan diplomatiyası üçün əlamətdar olduğunu, müvafiq olaraq 100 və 140 illik yubileylərinin qeyd olunduğunu bildirib. 100 illik tarixə malik olan diplomatiyamızın ötən dövr ərzində böyük uğurlara imza atdığını, bugün xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərimizin ölkəmizi layiqincə təmsil etdiyini diqqətə çatdırıb. Azərbaycan və Bolqarıstan arasındakı əlaqələrə toxunan diplomat hazırda iki ölkə arasında əməkdaşlığın yüksələn xətt üzrə inkişaf etdiyini, müxtəlif sahələrdə əməkdaşlıq üçün geniş perspektivlər olduğunu qeyd edib.

Akademik İ.Həbibbəyli çinar ağacının uzun ömürlülük rəmzi olduğunu və bu baxımdan ölkələrimiz arasında münasibətlərin də uzun ömürlü olmasını arzu edib və bu əlaqələrin davamlı və uzun ömürlü olacağına əminliyini ifadə edib. O qeyd edib ki, ölkələrimizin maraqları üst-üstə düşür və həm Azərbaycan, həm də Bolqarıstan hökumətlərinin apardığı siyasət ölkələrimizin inkişafı və möhkəmləndirilməsinə yönəlib.

Sofiya şəhəri merinin müavini Y.Xristova bu əlamətdar yubiley münasibətilə səfir N.Qurbanovanın timsalında Azərbaycan diplomatlarını təbrik edib və gələcək diplomatik fəaliyyətdə yeni nailiyyətlər arzu edib.

# Azərbaycanın Müdafiə naziri Pekində Syanşan forumunda iştirak edir





Çinin paytaxtı Pekində 9-cu Syanşan təhlükəsizlik dialoqu işə başlayıb.

AZƏRTAC xəbər verir ki, Çinin Milli Müdafiə Nazirliyinin, Hərbi Elmlər Assosiasiyasının və Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə keçirilən forumda dünyanın 23 dövləti Müdafiə naziri, 17 ölkə nazir müavini səviyyəsində təmsil olunub. Ümumilikdə 1300 nümayəndə, o cümlədən beynəlxalq və regional təşkilatların rəhbər şəxsləri, yüksək rütbəli hərbçilər tədbirə qatılıblar.

Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti forumda iştirak edir.

Açılış mərasimində çıxış edən Çinin Milli Müdafiə naziri Vey Fenxe bildirib ki, builki forum "Beynəlxalq düzənin qorunması və Asiya-Sakit okean regionunda sülhə yardım" mövzusuna həsr olunub. Asiya-Sakit okeanı regionunda təhlükəsizliyin təminatının dünya üçün əhəmiyyətindən danışan Çin rəsmisi ölkəsinin bu istiqamətdəki mövqeyindən danışıb. Vey Fenxe Çinin hərbi strategiyasının müdafiəyönümlü olduğunu, özünə qarşı hücum olmayacağı təqdirdə başqalarına hücum etməyəcəyini deyib.

Tədbirdə çıxış edən Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Syanşan forumunu yüksəksəviyyəli nüfuzlu beynəlxalq tədbir kimi qiymətləndirib.

Qeyd edək ki, 2006-cı ildən keçirilən ənənəvi Syanşan forumu yüksək rütbəli hərbçilərin, dövlət rəsmilərinin, tədqiqatçıların, ekspertlərin iştirakı ilə dünyada, xüsusən də Asiya-Sakit okean regionunda təhlükəsizlik məsələlərinin müzakirəsi üçün platforma rolunu oynayır. İki gün davam edəcək forumda "Böyük ölkələrin münasibətləri və beynəlxalq düzən", "Asiya-Sakit okean regionunda təhlükəsizlik risklərinin idarə olunması", "Təhlükəsizlik konsepsiyalarında yeniliklər", "Strateji inam və etimad tədbirləri", "Asiya-Sakit okeanı regionunun təhlükəsizlik quruluşu", "Terrorizm əleyhinə beynəlxalq əməkdaşlıq" və digər mövzularda bölmə iclasları keçiriləcək. Bundan başqa, forum çərçivəsində gənc alimlər və zabitlər üçün müvafiq mövzularda seminarlar, simpoziumlar təşkil olunacaq.

Səfər çərçivəsində Müdafiə naziri Zakir Həsənov Çinin müdafiə sənayesi kompleksinə daxil olan "Poly Technologies" və "CETC International" şirkətlərinin nümayəndələri ilə görüşüb. Görüşlərdə Azərbaycan ilə Çin arasında hərbi-texniki əməkdaşlıq məsələləri müzakirə olunub.

# Heydər Əliyev Mərkəzinin parkında Müstəqillik Günü münasibətilə konsert olub









Oktyabrın 20-də Heydər Əliyev Mərkəzinin parkında Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunmuş konsert olub.

AZƏRTAC xəbər verir ki, konsertdə bir çox tanınmış şəxslər, ziyalılar, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Konsert "Natiq" ritm qrupu və "Mirvari" rəqs qrupunun birgə təqdimatında "Qarabağ" kompozisiyası ilə başlayıb. Sonra Azərbaycanın estrada ulduzları Murad Arif, Röya və Miri Yusif çıxış edib, məşhur mahnılarını səsləndiriblər.

Musiqili gecədə həmçinin Rusiyada yaşayıb fəaliyyət göstərən tanınmış azərbaycanlı ifaçılar Elman, Ellai, Bahh-Tee konsertdə xüsusi qonaq qismində iştirak edərək populyar kompozisiyalarını ifa ediblər.

Sonra müğənni-bəstəkar, Azərbaycanın Xalq artisti EMİN çıxış edib. O, repertuarından bir sıra məşhur mahnılarını ifa edib. EMİN Azərbaycana həsr olunan mahnısını isə konsertdə iştirak edən digər sənətçilər və tamaşaçılarla birlikdə oxuyub.



Heydər Əliyev Mərkəzinin parkında təşkil olunan bayram konsertində Azərbaycan bayrağı dalğalandıran minlərlə insan iştirak edib.

●MÜNAQİŞƏ

# Suriyanın gələcəyi həll olunur

## Rusiya-Türkiyə sammiti ərəb ölkəsində vəziyyətin hansı məcrada inkişaf edəcəyini müəyyənləşdirəcək

Səkkiz ildən çoxdur Suriyada cərəyan edən qanlı münaqişədə bu gün, bəlkə də, dönüş mərhələsi başlayacaq. Söhbət ərəb ölkəsində hadisələrin bundan sonra hansı istiqamətdə cərəyan edəcəyindən gedir. Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğanın əldə edəcəkləri razılaşmalar Suriya dövlətinin və xalqının taleyinə böyük ölçüdə aydınlıq gətirəcək.



Əslində Suriyada vəziyyət cari ayın 9-da Türkiyə Silahlı Qüvvələrinin Suriya silahlı müxalifəti ilə birlikdə Suriyanın şimal-şərqində başladığı "Sülh bulağı" antiterror əməliyyatı nəticəsində yeni keyfiyyət dəyişikliyi kəsb etmişdir. Əməliyyat çərçivəsində bir neçə vəzifəni həyata keçirmək nəzərdə tutulurdu: YPG və İŞİD başda olmaqla Türkiyənin təhlükəsizliyini təhdid edən terrorçu təşkilatları və terrorçuları zərərsizləşdirib Türkiyə-Suriya sərhədi boyunca terror dəhlizinin yaranmasının qarşısını almaq, terrorçulardan təmizlənən ərazidə təhlükəsizlik zonası yaradıb Türkiyədə məskunlaşmış suriyalı qaçqınların bir hissəsini orada yerləşdirmək, nəticə etibarilə regionda sülh və əmin-amanlığı bərqərar etmək. Təhlükəsizlik zonasının özünü Türkiyə-Suriya sərhədinin 480 kilometri boyunca 30 kilometr dərinlikdə yaratmaq planlaşdırılırdı.

Nə qədər qəribə olsa da, dünyanın aparıcı dövlətləri Türkiyənin keçirdiyi antiterror əməliyyatını pislədi. Vaşinqton Ankaranın hərəkətinə yaşıl işıq yandırmadığını əsas tutaraq əməliyyata qarşı çıxdı, eyni zamanda Şimali Suriyadakı hərbçilərini geri çəkdi, yaratdığı hərbi bazaları dağıtdı. Vaşinqton, həmçinin Suriyanın şimalında təhlükəsizlik zonasının yaradılmasına, başqa sözlə, qaçqınların vətənə qayıtmasına dəstək verməyəcəyini bəyan etdi.

Avropa İttifaqı (Aİ) ölkələri də "Sülh bulağı"na münasibətdə oxşar mövqe sərgilədi. Aİ-nin liderləri iddia edirdilər ki, guya Türkiyənin keçirdiyi antiterror əməliyyatı beynəlxalq hüququn normalarına ziddir, Suriyanın ərazi bütövlüyünü pozur, ərəb ölkəsində humanitar vəziyyəti gərginləşdirəcək, mülki kürd əhalisi zərər çəkəcək və s. Aİ, həmçinin Türkiyəni Suriyanın şimal-şərqində təhlükəsizlik zonasının inşasına maddi yardım göstərməməklə hədələyirdi. Bu azmış kimi, Suriya xalqının yaşadığı faciəni müşahidə etməklə kifayətlənən bir sıra imkanlı ərəb dövlətləri də Qərbə züy tutaraq antitürk kampaniyasına qoşuldu.

Amma bütün bu iddialar üçün hansısa əsas tapmaq mümkün deyil. Əvvəla, Türkiyə əməliyyata BMT Təhlükəsizlik Şurasının terrorizmlə mübarizə haqqında qərarlarına, BMT Nizamnaməsinin 51-ci maddəsində yer alan "qanuni müdafiə hüququ"na, Türkiyə ilə Suriya arasında terrorizmlə mübarizə haqqında 1998-ci il tarixli Adana müqaviləsinə istinad edərək və Suriyanın ərazi bütövlüyünü pozmayacağını bəyan etməklə başlamışdır. Digər tərəfdən, Türkiyənin suriyalı kürdlərlə heç vaxt heç bir problemi olmamışdır və "Sülh bulağı"nın yalnız terrorçuları hədəfə aldığını nəzərə çarpdırmışdır. Sadə bir misal: Türkiyədə sığınacaq tapmış suriyalı qaçqınların 350 mini Suriyanın şimalından - YPG terrorçu təşkilatının Eyn əl-Ərəb (Kobani) bölgəsindən didərgin saldığı kürdlərdir.

Bütün bunlara baxmayaraq, ABŞ başda olmaqla Qərb dövlətləri antiterror əməliyyatını dayandırmaq üçün ardıcıl səylər göstərdi və nəhayət, buna nail oldu. Əməliyyat başlayandan doqquz gün sonra ABŞ-ın vitse-prezidenti Mayk Pensin başçılıq etdiyi nümayəndə heyəti Ankaraya gəlib Türkiyə rəhbərliyi ilə görüşdü. Görüşün yekunlarına görə, tərəflər Suriyanın şimal-şərqində atəşi 120 saat müddətinə dayandırmaq barədə sazişə gəldilər. Sazişə uyğun olaraq, terrorçular yaradılması nəzərdə tutulan təhlükəsizlik zonasından çıxarılacaq, onların ağır silahları yığılacaq, istehkamları və atəş mövqeləri yararsız hala gətiriləcək. Eyni zamanda ABŞ Suriyanın şimal-şərqində təhlükəsizlik zonasının yaradılması ideyasını qəbul etmiş, Suriyanın ərazi bütövlüyünün təmin olunmasını vacib saymışdır.

Suriyanın şimal-şərqində antiterror əməliyyatının dayandırıldığı elan edildikdən dərhal sonra ölkədə ildırım sürətli hadisələr baş verdi. Suriya hökuməti bir neçə gün əvvəl YPG-ni ölkəni parçalamağa çalışan terrorçu təşkilat elan etməsinə baxmayaraq, çox keçməmiş qucağını terrorçulara açdı. Şübhəsiz, bu mövqe dəyişikliyində Rusiya həlledici rol oynamışdır, çünki Moskva YPG-ni terrorçu təşkilat saymır, bu qruplaşmanı "kürd strukturu" kimi təqdim edir. Suriyanın şimal-şərqindən çıxmış terrorçuların yerini Rusiya hərbçiləri və Suriya hökumət qoşunları tutdular. Üstəlik, ABŞ İŞİD-in keçmiş "paytaxt"ı Rəqqə şəhərini və Mənbic rayonunu Rusiya qoşunları və Bəşşar Əsəd rejiminə təhvil verdi. Əldə olan məlumata görə, ABŞ YPG-ni hələ də silah-sursatla təchiz edir. Vaşinqton, həmçinin Suriyanın neft yataqlarının Rusiya və Bəşşar Əsəd rejiminin əlinə keçməməsi üçün ölkənin şərqində 200 nəfərlik hərbi kontingent saxlamaq niyyətindədir.

Beləliklə, Suriyada qüvvələr nisbəti tamamilə dəyişmişdir. Moskvanın Ankaraya münasibətində də dəyişiklik var. Rusiya Suriyada proseslərin gedişində Türkiyə ilə indiyədək birlikdə hərəkət edir, səylərini əlaqələndirirdi. İndisə Moskva Türkiyə qoşunlarının Suriyadan çıxmasının vacibliyini gündəmə gətirir. Elə bil ki, Suriyada bütün problemlər həll olunmuşdur, yalnız məhmətciyin bu ölkədə qalıb-qalmaması məsələsinə əlac tapılmamışdır.

Odur ki, bu gün Soçidə keçiriləcək Rusiya-Türkiyə sammiti fövqəladə əhəmiyyət kəsb edir. Zirvə görüşündə bir sıra məsələlərə aydınlıq gətirilməlidir. Hər şeydən əvvəl, Moskvanın "Sülh bulağı" əməliyyatının əhatə etdiyi əraziyə, o cümlədən Suriyanın şimal-şərqində təhlükəsizlik zonasının yaradılmasına münasibəti necədir? Moskva təhlükəsizlik zonasında suriyalı qaçqınların yerləşdirilməsinə necə baxır? Əlbəttə, qaçqınların Suriyaya qaytarılması məsələsini qısa müddətdə həll etmək mümkün deyil. Onların vətənə dönməsi üçün, ilk növbədə, infrastruktur yaradılmalı, yaşayış evləri tikilməlidir. Amma Türkiyədəki kürd qaçqınlarını, həmçinin ərəb qaçqınlarının bir hissəsini qaytarmaq çətin deyil: onların yaşadıqları evlər dağılmamışdır, yalnız vətəndə təhlükəsizlik tədbirləri görmək kifayətdir. Ən mühüm məsələ isə Türkiyənin cənub sərhədlərinin təhlükəsizliyinin təmin edilməsi, Suriya ərazisində, o cümlədən Afrin və İdlibdə, eləcə də "Fərat qalxanı" əməliyyatı ərazisindəki Türkiyə qoşunlarının bundan sonra necə fəaliyyət göstərməsidir. Ona görə də Soçidə Putin-Ərdoğan görüşünün gərgin keçəcəyi gözlənilir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

Statistika nədən xəbər verir

# Azərbaycana 9 ayda 2,4 milyon nəfərdən çox turist səfər etmişdir

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, bu ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 2 milyon 418,3 min və ya 2018-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 9,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Gələnlərin 30 faizi Rusiya Federasiyası, 22 faizi Gürcüstan, 9,7 faizi Türkiyə, 8,2 faizi İran, 3,9 faizi Səudiyyə Ərəbistanı, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Hindistan, hər birindən 1,8 faiz olmaqla İraq və Ukrayna, 1,6 faizi Türkmənistan, hər birindən 1,5 faiz olmaqla İsrail və Qazaxıstan, 1,4 faizi Pakistan, 1,2 faizi Böyük Britaniya, 11,3 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir.

65,9 faizini kişilər, 34,1 faizini qadınlar təşkil edən qonaqların sayında daha çox artım Türkmənistan (96,0 faiz), Hindistan (70,1 faiz), Misir (66,3 faiz), Çin (63,7 faiz), Səudiyyə Ərəbistanı (42,0 faiz), Filippin (39,4 faiz), Macarıstan (34,8 faiz), Polşa (32,0 faiz), Malayziya (27,3 faiz), Böyük Britaniya (27 faiz), İspaniya (26,7 faiz), Cənubi Koreya (22,4 faiz), Gürcüstan (21,6 faiz) və Almaniya (21,6 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Yanvar-sentyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin də sayı 24 faiz artaraq 110,3 min, MDB ölkələrindən gələnlərin sayı isə 8,3 faiz artaraq 880,9 min nəfər olmuşdur.

9 ayda xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə xeyli - 17,9 faiz artaraq 4201,5 min nəfərə çatmışdır. Ölkə vətəndaşlarının 36,3 faizi İrana, 29 faizi Gürcüstana, 17,5 faizi Rusiya Federasiyasına, 11,8 faizi Türkiyəyə, 5,4 faizi digər ölkələrə getmişdir.

Bu dövrdə İrana gedən Azərbaycan vətəndaşlarının sayı 39,1, Gürcüstana gedənlərin sayı 12,7, Rusiya Federasiyasına gedənlərin sayı 6,5, Türkiyəyə gedənlərin sayı 4,7 faiz artmışdır.

# Mehmanxanaların gəlirləri 16,7 faiz artmışdır

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-sentyabr aylarında ölkə üzrə mehmanxanalarda 2 milyon 666,7 min gecələmə keçirilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9 faiz çoxdur.



Gecələmələrin 55,7 faizi Bakıda, 9,4 faizi Qəbələdə, 9 faizi Qubada, 5,5 faizi Xaçmazda, 3,4 faizi Naftalanda, 2,8 faizi Qusarda, 2,5 faizi Naxçıvan Muxtar Respublikasında, 1,2 faizi Qaxda, hər birində 1 faiz olmaqla Mingəçevir və Lənkəranda, 8,5 faizi isə digər rayonlardakı (şəhərlərdəki) mehmanxanalarda qeydə alınmışdır.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən keçirilmiş gecələmələrin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 5,6 faiz artaraq 1 milyon 743,9 min olmuşdur ki, bu da ümumi gecələmələrin 65,4 faizini təşkil edir. Gecələmələrin 15,6 faizi Səudiyyə Ərəbistanı, 11,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 10,4 faizi Rusiya Federasiyası, 5,8 faizi İsrail, 5,5 faizi Hindistan, 5,1 faizi İran, 4,6 faizi Türkiyə, 3,6 faizi Küveyt, 3,1 faizi Böyük Britaniya, hər biri üzrə 2 faiz olmaqla ABŞ və Qətər, 1,9 faizi Pakistan, 1,6 faizi Çin,1,4 faizi İraq, 1,3 faizi Qazaxıstan, hər biri üzrə 1,1 faiz olmaqla Almaniya və Bəhreyn, 22,8 faizi isə digər ölkələrin vətəndaşlarının payına düşmüşdür.

Gecələmələrin 76,2 faizi Bakıda, 10 faizi Qəbələdə, 3,7 faizi Qubada, 2,8 faizi Naxçıvan Muxtar Respublikasında, 2,7 faizi Naftalan şəhərində, 4,6 faizi isə digər rayon və şəhərlərdəki mehmanxanalarda qeydə alınmışdır. Azərbaycan Respublikası vətəndaşları üzrə keçirilmiş gecələmələrin sayı da 2018-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 16,1 faiz artaraq 922,8 minə çatmışdır.

Məlumatda o da bildirilir ki, 9 ay ərzində mehmanxanaların gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz çox (334 milyon manat) olmuşdur ki, onun da 66,9 faizi nömrələrin (otaqların) təqdim edilməsi üzrə xidmətlərdən, 25,1 faizi içkilər də daxil olmaqla qida məhsullarının satışı üzrə xidmətlərdən, 2,2 faizi müalicə və sağlamlıq xidmətlərindən, 5,8 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilmişdir.

Yanvar-sentyabr aylarında mehmanxanaların birdəfəlik tutumundan istifadə səviyyəsinin ölkə üzrə orta göstəricisi 23,6 faiz (2018-ci ilin yanvar-sentyabr aylarında 21,9 faiz) təşkil etmişdir. Bu göstərici Qubada 54,3, Naftalanda 53,7, Şabranda 50,6, Qəbələdə 40,8, Bakıda 32,6, Beyləqanda 32 faiz, digər şəhər və rayonlarda isə orta ölkə göstəricisindən aşağı olmuşdur. Mehmanxanaların birdəfəlik tutumundan istifadə səviyyəsinin ən yüksək orta göstəricisi (46,4 faiz) avqust ayında qeydə alınmışdır.

# Hərbi Dəniz Qüvvələrinin taktiki təlimləri başa çatıb

Hərbi Dəniz Qüvvələrinin (HDQ) enerji infrastrukturunun mühafizəsi üzrə Xəzər dənizinin Azərbaycana aid hissəsində keçirdiyi taktiki təlimlər başa çatıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gəmi taktiki qruplarının qarşılıqlı fəaliyyətdə döyüş əməliyyatlarının planlaşdırılması və aparılması məsələlərinin işlənilməsi üzrə keçirilən təlimin məqsədi gəmi birləşmələri tərkibində birgə fəaliyyətin təşkili olub.

Təlimdə qüvvələrin idarəolunması üzrə komandirlərin və qərargahların bacarıqları təkmilləşdirilib, gəmi birləşmələrinin döyüş tapşırıqlarının yerinə yetirilməsi hazırlıqları yoxlanılıb.

BİLDİRİŞ

"AZƏRİŞIQ" ASC "Xüsusi Təyinatlı geyim dəstlərinin" satın alınması üzrə kotirovka sorğusu keçirir.

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 24 oktyabr 2019-cu il saat 15.00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8. Əlaqə telefonu: (012) 440-39-93 (23-32)

*Tender komissiyası*

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC müştərilərinin mobil internet servisinə artan tələbatını nəzərə alaraq, 15 oktyabr 2019-cu il tarixdən etibarən, fakturasız (SimSim) və fakturalı xətt sisteminə aid nömrələr üçün yeni “100 MB” günlük internet paketi istifadəyə təqdim edib. Göstərilənləri nəzərə alaraq, 26 noyabr 2019-cu il tarixdən etibarən, korporativ abunəçilər istisna olmaqla, bütün fakturalı və fakturasız (SimSim) xətt nömrələrinin abunəçiləri üçün “50 MB” günlük internet paketinə yeni qoşulmalar dayandırılacaq. Qeyd olunan tarixə kimi bu paketə qoşulan nömrələr isə müvafiq abunəlik ləğv olunana qədər internet paketindən ümumi əsaslarla istifadəyə davam edə biləcəklər.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, Mobil İnternet Paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən “Azercell Telekom” MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com),** həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

## “Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti lotereya biletlərinin çap edilməsi ilə əlaqədar *açıq tender elan edir*

Tender 1(bir) LOT üzrə keçirilir:

LOT-1. Lotereya biletlərinin çap edilməsi.

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, yuxarıda göstərilən LOT üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürüldükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri,Təbriz küçəsi, 79 (“Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti) ünvanından (əlaqələndirici şəxs: Abbasov Rüfət Rasim oğlu, telefon: 514 47 01/02) ala bilərlər.

**İştirak haqqı - 300 (üç yüz) manat**

**“Azərlotereya”ASC Baki şəhəri, Təbriz küçəsi, 79**
**VÖEN: 1300053151**
**Hesab: AZ90PAHA38090AZNHC0190003900**
**Bank: “PAŞA Bank” ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**Müxbir Hesab: AZ82NABZ01350100000000071944**
**SWIFT Code: PAHAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və süreti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **22 noyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə **29 noyabr 2019-cu il saat 18:00-a** qədər Bakı şəhəri,Təbriz küçəsi, 79 (“Azərlotereya” Açıq Səhmdar Cəmiyyəti ) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **02 dekabr 2019-cu il saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması məqsədilə 13 iyun 2019-cu il tarixdə elan etdiyi açıq tenderdə Tender komissiyasının qərarına əsasən “Azərimed” MMC tenderin qalibi elan edilmiş və qalib müəssisə ilə müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən “Azərbaycan” qəzetinin 17 iyul 2019-cu il və 03 avqust 2019-cu il tarixdə dərc edilmiş elanlar ilə əlaqədar bildiririk ki, 20 avqust 2019-cu il tarixdə keçirilmiş açıq tender sorğusu metodu ilə Peşə və kvalifikasiya standartlarının hazırlanması xidmətlərinin satın alınmasına dair tender komissiyasının qərarı ilə müsabiqənin qalibi “LAUSBERG” MMC elan olmuş və 11 oktyabr 2019-cu il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# “Azərbaycan energetikası” filmi və kitabının təqdimatı olub

Elektrik enerjisinin istehsalını, ötürülməsi və iradəedilməsini təmin edən “Azərenerji” ASC, elektrik enerjisinin paylanmasını həyata keçirən “Azərişıq” ASC ilə birgə 20 oktyabr Energetiklər Günü münasibətilə “Azərbaycan elektroenergetikası” adlı film hazırlayıb və eyni adlı kitab nəşr edib. Qeyd edək ki, bu il Azərbaycan elektroenergetikasının sistemləşməsinin 120, paylayıcı elektrik şəbəkəsinin formalaşmasının 90 ili tamam olur.

Hər iki qurumun birgə hazırladığı filmdə, o cümlədən kitabda Azərbaycan elektrik enerji sisteminin, paylayıcı elektrik şəbəkəsinin tarixindən bəhs




edilib. Daha dəqiqi 19-cu əsrdə çar Rusiyası dövründən başlayaraq cümhuriyyət dövründə, sovetlər zamanında və müstəqillik illərində elektroenergetika sahəsinin tarixi xronologiyası geniş əks olunub və son illərdə energetika sahəsində həyata keçirilən islahat, inkişaf, tikinti və yenidənqurma işləri pilləli şəkildə təqdim edilib. Həm film, həm də kitabın təqdimatı “Şimal” Elektrik Stansiyasının konfrans zalında olub. Qeyd edək ki, “İOS” və “android” əməliyyat sistemli telefonlardan “Azərbaycan elektroenergetikası” adlı proqramı endirib kitab haqqında interaktiv məlumat almaq, eyni zamanda Azərbaycan elektroenergetikası filminə https://www.youtube.com/watch?v=80uOI8dYkEo linki vasitəsilə baxmaq mümkündür.

***“Azərbaycan”***

# İrandan Azərbaycana 15 kiloqramdan çox narkotik vasitənin keçirilməsi cəhdinin qarşısı alınıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) dövlət sərhədinin etibarlı mühafizəsi və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə istiqamətində sərhəd mühafizə və əməliyyat-axtarış tədbirlərini davam etdirir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, oktyabrın 18-də Cəlilabad rayonunun Yusifli kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədindən narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Sərhəd naryadı tərəfindən iki nəfər sərhəd pozucusunun hərəkəti aşkar olunub. Qaçaqmalçılar dövlət sərhədindən qanunsuz keçirdikləri əşyaları ataraq geri qaçıblar.

Həmin əşyalara baxış keçirilib, 15 kiloqram 445 qram narkotik vasitə və



580 ədəd “Metodon-40” psixotrop dərman preparatları olması müəyyən edilib. Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***“Azərbaycan”***

## Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə *tender elanı*

*Təkrar*

Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının tibbi sığortalanması üzrə “Azərbaycan” qəzetinin 03 sentyabr 2019-cu il tarixli nömrəsində dərc edilmiş tender, Tender komissiyasının 02 oktyabr 2019-cu il tarixli qərarı ilə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 50-1.2-ci və 50-1.3-cü maddələrinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşları üçün tibbi sığorta xidmətlərinin alınması üzrə açıq tender keçirir.

Tender proseduru 21 noyabr 2019-cu il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün müraciət (ərizə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 08 yanvar 2020-ci il tarixinədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən lisenziyanın və tibbi sığorta fəaliyyətinin həyata keçirilməsinə icazənin surəti;*
- *son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 20 noyabr 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 08 noyabr 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **100 (bir yüz) manatdır.** Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Mərkəzi Bankı** | |
| **Kod:** | **501004** |
| **VÖEN:** | **9900071001** |
| **Hesab:** | **AZ25NABZ01701190000000001944,** |
| **Müxbir hesab:** | **AZ74NABZ01451700000000001944** |
| **SWIFT BIK:** | **NABZAZ2C** |

**Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.**
**Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2019-cu il tarixdən.**
**Xidmətin göstərilməsi müddəti: 12 (on iki) ay.**
**Qiymətləndirmə amilləri: maliyyə və texniki.**

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Tender üzrə əlaqələndirici şəxs: Hüquq departamentinin əməkdaşı: Elvin Şirdanov (elvin_shirdanov@cbar.az, tel.: 493-11-22 (daxili 428)

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankında istismarda olan bar-kod printerləri üçün etiketlərin satın alınması ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar Komissiyasının 08 oktyabr 2019-cu il tarixli qərarına əsasən “HALAL-P” MMC qalib elan edilmişdir.

Qalib şirkətlə 7788 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 23.10.2019-cu il tarixdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.

## B İ L D İ R İ Ş

“AZƏRİŞIQ” ASC tərəfindən 12 sentyabr 2019-cu il tarixdə “Azərbaycan” qəzetində və etender.gov.az saytında elan verilmiş Fiber optik kabel və muftaların satın alınması üzrə kotirovka sorğusu ləğv hesab olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən keçirilmiş “Texniki-iqtisadi cəhətdən qazlaşdırılması səmərəli olmayan ucqar yaşayış məntəqələrinin alternativ enerji mənbələri ilə təminatı məsələsinin araşdırılması və müvafiq təkliflərin hazırlanması” işlərinin satın alınmasına dair açıq tenderdə “Azalternativenerji” MMC qalib elan edilmiş və qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## «AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in İcraiyyə Komitəsi AHİK sədrinin müavini Aqil Dadaşova bacısı
**AFİQƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azərenerji” ASC-nin rəhbərliyi
**AYAZ YUSİFOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi məhkəmənin hakimi Fikrət Əliyevə atası
**HÜSEYN ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı Avaz Yusifova qardaşı
**AYAZ YUSİFOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

“Azercell Telekom” MMC-nin kollektivi şirkətin Korporativ Seqment Biznes strukturunun əməkdaşı
**ƏLVAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Dövlət İnvestisiyaları şöbəsinin müdiri Əli Hacıyevə əzizi
**ƏDİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi Sumqayıt Şəhər Məhkəməsinin hakimi Fikrət Əliyevə atası
**HÜSEYN ƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin rəhbərliyi və kollektivi Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazova bacısı
**ÇİÇƏK XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt İnzibati-İqtisadi Məhkəməsinin sədri, hakimləri və kollektivi Sumqayıt Şəhər Məhkəməsinin hakimi Fikrət Əliyevə atası
**HÜSEYN ƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 538-97-96, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-72-39, 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 8959**
**Sifariş 3537**
**Qiymәti 40 qəpik**